PREZİDENT İLHAM ƏLİYEV: ƏGƏR DÜNYADA BEYNƏLXALQ HÜQUQ VƏ ƏDALƏT POZULMASA, MÜHARİBƏ DƏ OLMAYACAQ

İqtisadi müstəqillik bizə imkan verir ki, beynəlxalq məsələlərin həllində, ikitərəfli və çoxtərəfli əməkdaşlıq formatında öz mövqeyimizi müdafiə edək. Bizim mövqeyimiz ədalətlidir, beynəlxalq hüquqa və ədalətə söykənir. Bu iki anlayış beynəlxalq münasibətlər üçün də xüsusi əhəmiyyət kəsb edir. Harada ki, beynəlxalq hüquq, ədalət pozulur, orada toqquşmalar da, müharibələr də, gərginlik də olacaq. Əgər dünyada beynəlxalq hüquq və ədalət pozulmasa, müharibə də olmayacaq. AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 66-cı kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2014-cü il noyabrın 13-də Bakıda keçirilən Azərbaycan-İran biznes-forumundakı nitqində söyləyib...

Bax səh. 4

PROBLEMLİ AKTİVLƏRİN ƏVƏZİNDƏ ƏLDƏ EDİLMİŞ NƏQLİYYAT VASİTƏLƏRİNDƏN SƏMƏRƏLİ İSTİFADƏ MƏSƏLƏSİ NAZİRLƏR KABİNETİNDƏ MÜZAKİRƏ OLUNUB

Sentyabrın 6-da Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun rəhbərliyi ilə aidiyyəti qurumların (İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, Bakı Nəqliyyat Agentliyi...

Bax səh. 4

Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 07 sentyabr 2018-ci il, cümə / № 168 (5295). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik

Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiyaya rəsmi səfər edib

Prezidentin iş günü

Prezident İlham Əliyev Braziliya Federativ Respublikasının Prezidenti Mişel Temerə təbrik məktubu göndərib.

Türkdilli dövlətlər arasında müxtəlif sahələri əhatə edən çoxşaxəli münasibətlər uğurla inkişaf edir

Yeni geostrateji şəraitdə dünya siyasəti və beynəlxalq münasibətlər sistemində fundamental dəyişikliklər baş verir. Bu dəyişikliklər xalqlar, dövlətlər qarşısında yeni çağırışlar yaratmaqla yanaşı, regional əməkdaşlıq və beynəlxalq təhlükəsizlik məsələlərinin daha da aktuallaşmasını şərtləndirib. Belə şəraitdə türkdilli dövlətlər arasında müxtəlif sahələri əhatə edən əməkdaşlığın dərinləşdirilməsi və birliyin daha da möhkəmləndirilməsi də strateji əhəmiyyətə malikdir. Sentyabrın 3-də Qırğız Respublikasının Çolpon-Ata şəhərində Türkdilli...

Bax səh. 5

Əmək, məşğulluq və sosial müdafiə sahələrində şəffaf və operativ xidmətlərin təşkili işləri gücləndiriləcək

Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində dövlət xidmətlərinin elektron texnologiyalar üzərində tam şəffaf və operativ şəkildə qurulmaqla, həmin sahələrdə innovativ idarəetmənin...

Bax səh. 7

Azərbaycan idmançısı III Dünya Köçəri Oyunlarında qızıl medal qazanıb

Azərbaycan idmançısı Cəlal Süleymanov (60 kq) Qırğızıstanın ev sahibliyi etdiyi III Dünya Köçəri Oyunlarında milli güləş növü üzrə yarışda qızıl medal qazanıb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, finala vəsiqə uğrunda qazaxıstanlı rəqibinə qalib gələn Cəlal Süleymanov dünən keçirilən həlledici görüşdə Qırğızıstan təmsilçisini məğlubiyyətə uğradaraq qızıl medala sahib olub. Qızıl medalı güləşçimizə III Dünya Köçəri Oyunlarına Azərbaycandan qonaq kimi dəvət edilən...

Bax səh. 6

ŞİMAL-CƏNUB BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZİNİN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLİB

Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi vasitəsilə əvvəlki illə müqayisədə 100 dəfə çox yük daşınıb. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu barədə iqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası...

Bax səh. 4

AZƏRBAYCANIN REGİONLARINDA FƏAL MƏŞĞULLUQ TƏDBİRLƏRİ HƏYATA KEÇİRİLİR

2018-ci ilin 8 ayı ərzində respublikanın 15 şəhər və rayonunda təşkil olunan əmək yarmarkalarında 814 nəfər işsiz vətəndaş münasib işlərlə təmin edilib

Sosial dövlət olan Azərbaycanda fəal məşğul əhalinin əmək bazarına inteqrasiyasının təmin edilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Prezident İlham Əliyev ölkədəki müsbət demoqrafik vəziyyətə adekvat olaraq yeni iş yerlərinin yaradılmasını daimi prosesə çevirməklə bağlı qarşıya mühüm vəzifə qoyub. Dövlət başçısının müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq paytaxt Bakıda olduğu kimi, bölgələrdə də iqtisadi aktivlik təmin olunur və son nəticədə bütün respublika üzrə insanların məşğulluq imkanları getdikcə artır. Son 15 ildə respublika üzrə 1,9 milyon yeni iş yeri açılıb. Həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində ölkədə işsizliyin səviyyəsini 5 faizədək aşağı salmaq mümkün olub ki, bu da dünyada ən yaxşı göstəricilərdən hesab...

Bax səh. 8

ELDAR İBRAHİMOV: PREZİDENT İLHAM ƏLİYEVİN RUSİYAYA SƏFƏRİ İKİ ÖLKƏ ARASINDA MÜNASİBƏTLƏRİN DAHA DA İNKİŞAFINA TƏKAN VERƏCƏK

"Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfərinin zəngin proqramı, iki ölkə prezidentlərinin görüşlərində müzakirə olunan məsələlərin geniş...

Bax səh. 4

Yaşar Əliyev Sülh Mədəniyyəti Forumunda Azərbaycanda tolerantlıq və sülh ənənələrindən danışıb

Azərbaycan milli və beynəlxalq səviyyələrdə mədəniyyətlərarası və dinlərarası dialoqun dəstəklənməsinə birinci dərəcəli əhəmiyyət verir. AZƏRTAC xəbər verir ki, Azərbaycanın BMT yanında daimi...

Bax səh. 7

Mamuka Baxtadze: Azərbaycan ilə münasibətlərin daha da dərinləşməsi üçün birgə fəaliyyət planı hazırlanır

Bizə yaxın qonşu və dost ölkə olan Azərbaycana səfərim çox məhsuldar və hər iki tərəf üçün çox...

Bax səh. 6

Sevinc Fətəliyeva: Azərbaycan türkdilli ölkələr arasında əlaqələrin güclənməsində maraqlıdır

Azərbaycan bütün türkdilli dövlətlərlə geniş münasibətlərə malikdir. Ümumilikdə, Azərbaycan türkdilli...

Bax səh. 5

Azərbaycan təhsili güclü maddi-texniki bazaya və kadr potensialına malikdir

...Bilik Gününün böyük bayram kimi qeyd olunması Azərbaycanda bir ənənəyə çevrilib. Hər bir xalqın, ölkənin gələcəyi...

Bax səh. 5

Rusiyalı ekspert: "Şimal-Cənub" layihəsi hazırda ən vacib birgə layihədir

"Şimal-Cənub" layihəsi hazırda ən vacib birgə layihədir. Bu layihədə Azərbaycan çox böyük rol oynayır. Tanınmış rusiyalı ekspert...

Bax səh. 5

Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiyaya rəsmi səfər edib



Xorvatiya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 6-da rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.

Azərbaycanın və Xorvatiyanın dövlət himnləri səsləndirilib.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verib.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiya əsgərlərini salamlayıb.

Xorvatiyanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Kolinda Qrabar-Kitaroviçə təqdim olunub.

Prezidentlər birgə foto çəkdiriblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə təkbətək görüşü olub.

Görüşdə Azərbaycan ilə Xorvatiya arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulanıb.

Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsi baxımından əhəmiyyəti qeyd olunub.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər ikitərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin iştirakı ilə Azərbaycan-Xorvatiya sənədlərinin imzalanması mərasimi olub.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Xorvatiya Respublikasının Mədəniyyət Nazirliyi arasında 2018-ci, 2019-cu və 2020-ci illər üzrə mədəni əməkdaşlığa dair Proqram"ı Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Xorvatiya Respublikasının mədəniyyət naziri xanım Nina Obulyen Korjinek imzalayıblar.

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Xorvatiya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Xorvatiya Respublikasındakı səfiri Fəxrəddin Qurbanov və Xorvatiya Respublikasının Kənd Təsərrüfatı Nazirliyində dövlət katibi xanım Mariya Vuçkoviç imzalayıblar.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Xorvatiya Prezidenti Kolinda Qrabar-Kitaroviç bəyanatla çıxış edib: **"Xanımlar və cənablar.**

Sizin hamınızı, xüsusən də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi və Onun nümayəndə heyətini Xorvatiya Respublikasında səmimi qəlbdən salamlayıram. Cənab Prezident, ümidvaram ki, Siz Özünüzü burada Öz evinizdəki kimi rahat hiss edirsiniz. Bu gün Sizin səfəriniz başlayıb və apardığımız danışıqlar bu axşam da davam edəcəkdir. Əminəm ki, Sizin səfəriniz həm xoş, həm də məhsuldar olacaqdır. Beləliklə, Sizə və nümayəndə heyətinizə səmimi qəlbdən "Xoş gəlmisiniz!" deyirəm. Həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Sizi təbrik etmək istərdim.

Xorvatiyaya Sizin 2013-cü ildəki rəsmi səfərinizdən sonra və mənim 2016-cı ilin oktyabrında Azərbaycana rəsmi səfərimdən etibarən, - mən bu səfəri çox yaxşı xatırlayıram, - biz dost ölkələrimiz arasında bir çox birgə işlər görmüşük. Xorvatiya Azərbaycanı strateji tərəfdaşlıq haqqında Bəyannamə əsasında özünün mühüm strateji tərəfdaşı hesab edir. Bu Bəyannamə iki ölkə arasında 2013-cü ildə Zaqrebdə Sizin rəsmi səfəriniz çərçivəsində imzalanmışdır.

Biz bu gün əməkdaşlığımızın bir sıra sahələrində mövcud olan böyük potensial haqqında danışdıq. Biz, həmçinin siyasi məsələlər üzrə fikir mübadiləsi apardıq, o cümlədən enerji, iqtisadiyyat, mədəniyyət, elm-texnologiya, təhsil və əlbəttə ki, xalqlarımız arasında birbaşa təmasların inkişafı haqqında danışdıq. Mən bu gün imzalanmış sənədləri vacib hesab edirəm, alqışlayıram və bu, bizim ikitərəfli münasibətlərimizə təkan verəcək.

Azərbaycan və Xorvatiya əsl dostlardır. Biz bir-birimizi Avropa İttifaqı çərçivəsində də dəstəkləyirik. Biz, Azərbaycanın Avropa İttifaqı ilə ikitərəfli qaydada münasibətlərinin inkişaf etdirilməsi ilə bağlı mövqeyini yüksək dəyərləndiririk. İnanıram ki, biz müdafiə sahəsində də əməkdaşlığımızı inkişaf etdirəcəyik. Çünki biz, 2013-cü ildə müdafiə sahəsində də əməkdaşlıqla bağlı anlaşma memorandumu imzaladıq. Bu baxımdan zabitlərimiz və hərbçilərimiz, əsgərlərimiz bir sıra müxtəlif hərbi kurslarda, hərbi məktəblərdə öz təhsilini artıra bilərlər.

Biz, həmçinin iqtisadi əməkdaşlığa da toxunduq. İnanıram ki, biz bunu inkişaf etdirə bilərik. Çünki bu sahədə hazırkı vəziyyət hələ o qədər də istənilən səviyyədə deyil. Bildiyiniz kimi, iqtisadi əməkdaşlıqla bağlı Azərbaycan ilə Xorvatiya arasında qarşılıqlı komissiya öz işini aparır. İşin əsas məqsədi ikitərəfli layihələr irəli sürməkdən, onları həyata keçirməkdən ibarətdir. Biz, həmçinin Bakıda bu komissiyanın son iclasını keçirmişik və istərdik ki, növbəti sessiya yaxın zamanlarda öz işinə başlasın. Təbii ki, bu çərçivədə əczaçılıq və enerji sahəsinə xüsusi diqqət yetirməliyik. İnanıram ki, Xorvatiya digər sahələrdə də öz təcrübəsi ilə bölüşə bilər. Bu gün biz, bu əməkdaşlığın, həmçinin əczaçılıq sahəsində də genişləndirilməsi haqqında danışdıq. Prezident bununla bağlı qeyd etdi ki, şirkətlərimiz tərəfindən Xorvatiya ilə Azərbaycan arasında birgə müəssisə təsis edilə bilər. Bunun sayəsində bizim əczaçılıq şirkətləri üçün fürsət yaranacaq ki, onlar Mərkəzi Asiya və ümumiyyətlə, Xəzər hövzəsi regionuna çıxış əldə etsinlər, o cümlədən Azərbaycanda da fəaliyyət göstərsinlər. Təbii ki, bu da bizim aramızda ticari münasibətləri də inkişaf etdirəcəkdir.

Eyni zamanda, gəmiqayırma sahəsində də vacib işlər var. Bizim 6 gəmi ilə bağlı müzakirələrimiz oldu. Ümidvaram ki, bununla bağlı danışıqlarımız davam etdiriləcəkdir və Azərbaycan ilə biznes potensialını tam şəkildə istifadə edə biləcəyik.

Həmçinin biz kənd təsərrüfatı, informasiya texnologiyaları, yeyinti məhsullarının emalı sahələrində də əməkdaşlığı inkişaf etdirməyə ümid edirik.

Xorvatiya gələcəkdə bu regionun daha inkişaf etmiş qovşağına çevriləcəkdir. Bunun üçün biz istərdik ki, Azərbaycanın reallaşdırdığı və bir çox ölkələrin ərazisindən keçən qaz boru kəməri layihəsində də iştirak edək. Bildiyiniz kimi, Adriatik dənizinin sahilində bu layihə çərçivəsində boru kəməri çəkilir. Biz, həmçinin Xorvatiyanın Krk adasında maye qaz terminalının tikintisində maraqlıyıq. Bu, Azərbaycanın enerji bazarlarına çıxışını daha da genişləndirəcək.

O ki qaldı, Avropa İttifaqındakı fəaliyyətimizə, Xorvatiya güclü iradəyə əsaslanaraq Cənub və Mərkəzi Avropa ölkələri ilə Xəzər hövzəsi arasında daha geniş əməkdaşlığın inkişaf etdirilməsinə tərəfdardır. Azərbaycan əslində, bu təşəbbüsü dəstəkləyibdir. Bu təşəbbüsə digər tərəfdaşlar da, maraqlı dövlətlər də qoşula bilər. Bu təşəbbüsdə dünyanın müxtəlif şirkətləri iştirak edə bilər. Buxarestdə 2018-ci ilin sentyabrında bununla bağlı keçiriləcək Zirvə görüşündə hesab edirik ki, mühüm addımlar atılacaq və bu, çox yüksək səviyyədə, siyasi səviyyədə ortaya qoyulan bir iradə olacaqdır. Bu da bizim spesifik dialoqumuzun əsasını təşkil edir.

Mən, eyni zamanda, bildirmək istəyirəm ki, Azərbaycan NATO-nun mühüm tərəfdaşıdır. Sizin NATO-ya verdiyiniz töhfəniz vacibdir. Bildiyiniz kimi, Azərbaycan da bizim ölkə kimi müxtəlif yerlərdə təhlükəsizlik məsələlərinin həllinə, sabitliyin qorunmasına töhfə verir və bunda maraqlıdır. Burada söhbət, xüsusən Avropanın cənub bölgəsindən gedir. Siz, həmçinin Əfqanıstanda aparılan əməliyyatlara da qatılmısınız. Təhlükəsizliyə və sabitliyə verdiyiniz davamlı dəstəyə və töhfəyə görə mən Sizə təşəkkürümü bildirirəm.

davamı 3-cü səhifədə

Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiyaya rəsmi səfər edib

əvvəli 2-ci səhifədə

Sonda bildirmək istəyirəm ki, bu yaxınlarda biz qərar qəbul etdik. Azərbaycanda bizim müvəqqəti ofisimiz bağlanır. Lakin mən qərar qəbul etdim ki, Bakıda Xorvatiyanın daimi səfirliyi fəaliyyətə başlasın. Mən bununla bağlı Azərbaycana səfir də təyin edəcəyəm.

Cənab Prezident, Sizi Xorvatiyada bir daha səmimi qəlbdən salamlayırıq və ümidvaram ki, səfəriniz xoş keçəcəkdir".

Prezident İlham Əliyevin bəyanatı: **"Çox sağ olun, hörmətli xanım Prezident.**

Əziz dostlar.

İlk növbədə, xanım Prezident, məni Xorvatiyaya dəvət etdiyinizə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Mən, Siz qeyd etdiyiniz kimi, Xorvatiyada Özümü evimdəki kimi hiss edirəm. Sizin gözəl ölkənizə yenidən səfər etmək mənim üçün çox xoşdur.

Bizim siyasi dialoqumuz çox fəal aparılır. Xanım Prezident qeyd etdiyi kimi, biz tez-tez görüşürük. İki il bundan əvvəl xanım Prezident Azərbaycanda rəsmi səfərdə idi. Səfər çox uğurlu keçmişdir və çox gözəl nəticələri olmuşdur. Keçən il biz bir beynəlxalq konfrans çərçivəsində görüşmüşdük. Bu gün də mən Xorvatiyadayam. Bu, göstərir ki, siyasi dialoq çox fəaldır. Bu, onu göstərir ki, Xorvatiya və Azərbaycan doğrudan da strateji tərəfdaşlardır. Xanım Prezidentin qeyd etdiyi kimi, beş il bundan əvvəl Zaqrebdə bu barədə Bəyannamə imzalanmışdır.

Strateji tərəfdaşlıq əlaqələrimiz genişlənir, güclənir. Bu gün bir çox məsələlər müzakirə olundu. Xanım Prezident bu barədə məlumat verdi. Öz tərəfimdən qeyd edim ki, biz Xorvatiya ilə daha böyük həcmdə ticarət əməliyyatları aparmaq istəyirik. Ticarət dövriyyəsinin nə həcmi, nə də strukturu bizi qane edə bilməz. Hesab edirəm ki, hökumətlərarası komissiya bu məsələ ilə bağlı çox ciddi fəaliyyət göstərəcək. Yaxın zamanlarda həm ticarət dövriyyəsinin artırılması, eyni zamanda, müştərək investisiya layihələri də icra edilə bilər.

Əlbəttə ki, bizim energetika sahəsində əməkdaşlığımız çox önəmlidir. Azərbaycan Cənub Qaz Dəhlizinin icrası ilə çox fəal məşğuldur, bu nəhəng layihənin təşəbbüskarı olmuşdur. Bu layihə 7 ölkəni birləşdirir, Bakıdan Avropaya qədər 3500 kilometr uzunluğunda qaz kəmərinin çəkilişini və Azərbaycanın nəhəng "Şahdəniz" yatağının işlənilməsini nəzərdə tutur. Dörd seqmentdən ibarət olan bu layihə uğurla icra edilir. Bu ilin mayında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. İyun ayında isə biz TANAP layihəsinin açılışını qeyd etdik. Beləliklə, əminəm ki, yaxın iki il ərzində Azərbaycan qazı ilk dəfə olaraq Avropa məkanına çatdırılacaq. Beləliklə, Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə veriləcək və Azərbaycan öz qaz potensialını daha da böyük həcmdə dünyaya, Avropaya təqdim edə bilər.

Əlbəttə ki, Xorvatiya ilə bu sahədəki əməkdaşlıq çox önəmlidir. Bakıda dörd il ardıcıllıqla Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının toplantıları keçirilir. Xorvatiya bu toplantılarda yüksək səviyyədə təmsil olunur. Bizim aramızda bu məsələ ilə bağlı memorandum da imzalanmışdır. İon-Adriatik qaz kəmərinin tikintisi ilə bağlı çox əhəmiyyətli danışıqlar aparılmaqdadır.

Azərbaycanın qaz ehtiyatları çox böyükdür. Təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Bu, onu göstərir ki, biz, qaz hasilatının artırılması ilə bağlı əlavə addımlar atacağıq və ixrac coğrafiyasını da genişləndirmək fikrindəyik.

Avropa İttifaqı-Azərbaycan əlaqələri uğurla inkişaf edir. Bu ilin iyul ayında Brüsseldə Avropa İttifaqı ilə Azərbaycan arasında "Tərəfdaşlıq prioritetləri" sənədi imzalanmışdır. Bu, yeni Sazişin imzalanması üçün çox önəmli bir addımdır. Hazırda Avropa İttifaqı və Azərbaycan yeni Saziş üzərində işləyir. İşlər yaxşı gedir və Xorvatiya həmişə bizim Avropa İttifaqı ilə əməkdaşlığımızı dəstəkləmiş və öz dəyərli töhfəsini vermişdir. Avropa İttifaqı ilə bizim əlaqələrimiz bir çox sahələri əhatə edir, siyasi islahatlar, iqtisadi əməkdaşlıq, enerji əməkdaşlığı və nəqliyyat sahəsindəki əməkdaşlıq. Azərbaycan bu sahədə də öz töhfəsini verir.

Keçən ilin oktyabr ayında Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı olmuşdur. Bu yol nəinki Azərbaycanı Türkiyə ilə birləşdirir, Asiyanı Avropa ilə birləşdirən yeni yoldur, yeni nəqliyyat damarıdır, ən qısa yoldur. Bu yol artıq fəaliyyətdədir. Göndərilən yüklərin həcmi hər gün artır və Azərbaycan Avrasiyanın nəqliyyat xəritəsinə də öz dəyərli töhfəsini vermişdir. Ümid edirəm ki, xorvatiyalı tərəfdaşlarımız bu yoldan da istifadə edə biləcəklər. Çünki bu, nəqliyyat və iqtisadi sahələrdə çox gözəl layihədir.

Azərbaycanın NATO ilə əməkdaşlığı yüksək səviyyədədir. Mənim NATO-ya çoxsaylı rəsmi səfərlərim olmuşdur. Yaxın keçmişdə Azərbaycan Əfqanıstanda "Qətiyyətli dəstək" missiyasındakı öz hərbi kontingentinin sayının artırılması ilə bağlı qərar qəbul etmişdir. Artıq 120 azərbaycanlı hərbçi Əfqanıstanda xidmət göstərir. Eyni zamanda, "Qətiyyətli dəstək" missiyasının təmin olunması üçün Azərbaycan öz hava məkanını və nəqliyyat infrastrukturunu təqdim edib. Bu da missiyanın uğurla davam etməsi üçün çox önəmli məsələdir.

Bir sözlə, həm Avratlantik strukturlarla bizim əlaqələrimiz, həm də ikitərəfli müstəvidə aparılan işlər onu göstərir ki, Xorvatiya və Azərbaycan, sözün əsl mənasında, strateji tərəfdaşlardır. Bu gün xanım Prezident qeyd etdiyi kimi, bir çox sahələrdə gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı. Əczaçılıq, kənd təsərrüfatı, kənd təsərrüfatı məhsullarının emalı, gəmiqayırma sahələrində bütün istiqamətlər üzrə, əminəm ki, yaxşı nəticələr olacaq. Müvafiq göstərişlər verildi. Əminəm ki, hökumətlərarası müştərək komissiya bütün bu göstərişləri vaxtında və yüksək səviyyədə icra edəcək.

Hörmətli xanım Prezident, dəvətə və göstərilən qonaqpərvərliyə görə Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Dost Xorvatiya xalqına daim tərəqqi və xoşbəxtlik arzulayıram. Sağ olun".

* * *

Həmin gün Prezident İlham Əliyev Zaqrebdə "Xorvatiya Qurbanlarının Səsi-Ağrı Divarı" abidəsini ziyarət edib.

Dövlətimizin başçısı abidənin önünə əklil qoyub, Xorvatiya uğrunda canlarından keçmiş insanların xatirəsini ehtiramla yad edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə işçi nahar edib.

Xorvatiyanın Baş naziri Andrey Plenkoviç Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb.

Azərbaycan Prezidenti dövlət iqamətgahının fəxri qonaqlar kitabına ürək sözlərini yazıb.

Prezident İlham Əliyev və Baş nazir Andrey Plenkoviç birgə foto çəkdiriblər.

Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdiyi, siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib. İqtisadi sahədə əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanıb. Həmçinin kənd təsərrüfatı, əczaçılıq, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

Söhbət zamanı ölkəmizin Avropa İttifaqı ilə uğurlu əməkdaşlıq etdiyi bildirilib. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu, Cənub Qaz Dəhlizinin əhəmiyyəti qeyd olunub, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonra Azərbaycan Prezidenti və Xorvatiyanın Baş naziri birgə işçi nahar ediblər.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xorvatiya Respublikası parlamentinin sədri Qordan Yandrokoviç ilə görüşüb.

Parlament sədri Qordan Yandrokoviç Prezident İlham Əliyevi qarşılayıb.

Azərbaycan Prezidenti İlham Əliyev və Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviç birgə foto çəkdiriblər.

Görüşdə Azərbaycan Prezidentinin Xorvatiyaya rəsmi səfərinin uğurlu keçdiyi, səfər çərçivəsində səmərəli müzakirələrin aparıldığı qeyd edilib. Azərbaycan ilə Xorvatiya arasında strateji tərəfdaşlıq əlaqələrinin inkişaf etdiyi, siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib. Ticarət dövriyyəsinin artırılmasının vacibliyi qeyd olunub. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu, Cənub Qaz Dəhlizinin əhəmiyyəti xüsusi vurğulanıb. Yüksək səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin genişləndirilməsində xüsusi rolunun olduğu bildirilib.

Azərbaycanın Əfqanıstanda "Qətiyyətli dəstək" missiyasında iştirakının önəmi qeyd olunub, ölkəmizin Avropa İttifaqı ilə uğurlu əməkdaşlıq etdiyi bildirilib. Azərbaycan ilə Xorvatiya arasında nəqliyyat, əczaçılıq, turizm sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğu vurğulanıb.

Söhbət zamanı parlamentlərarası əlaqələrin genişləndirilməsinin vacibliyi qeyd edilib, dostluq qruplarının bu işə mühüm töhfə verə biləcəyi bildirilib və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Sentyabrın 6-da Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasına rəsmi səfəri sentyabrın 6-da başa çatıb.

Prezident İlham Əliyev: Əgər dünyada beynəlxalq hüquq və ədalət pozulmasa, müharibə də olmayacaq

İqtisadi müstəqillik bizə imkan verir ki, beynəlxalq məsələlərin həllində, ikitərəfli və çoxtərəfli əməkdaşlıq formatında öz mövqeyimizi müdafiə edək. Bizim mövqeyimiz ədalətlidir, beynəlxalq hüquqa və ədalətə söykənir. Bu iki anlayış beynəlxalq münasibətlər üçün də xüsusi əhəmiyyət kəsb edir. Harada ki, beynəlxalq hüquq, ədalət pozulur, orada toqquşmalar da, müharibələr də, gərginlik də olacaq. Əgər dünyada beynəlxalq hüquq və ədalət pozulmasa, müharibə də olmayacaq.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 66-cı kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2014-cü il noyabrın 13-də Bakıda keçirilən Azərbaycan-İran biznes-forumundakı nitqində söyləyib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 66-cı kitabındakı materiallar 2014-cü ilin noyabrından 2015-ci ilin yanvarınadək olan dövrü əhatə edir.

Kitab Prezident İlham Əliyevin və Azərbaycanda rəsmi səfərdə olan İran Prezidenti Həsən Ruhaninin mətbuata bəyanatları ilə başlayır. Bu cilddə dövlətimizin başçısının Bakıya işgüzar səfərə gəlmiş Əfqanıstan Prezidenti ilə görüşünə, habelə Koreya Respublikası Baş nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etməsinə, eləcə də Türkiyə Respublikasına dövlət səfərinə, Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında iştirakına, imzalanan sənədlərə, Almaniyaya işgüzar səfərinə, bu ölkələrin rəhbərləri ilə apardığı danışıqlara, mətbuata bəyanatlara dair materiallar toplanıb.

Nəşrdə Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirlikləri, İordaniya, Böyük Britaniya, Türkiyə, Serbiya, Yaponiya və digər dövlətlərin, Avropa Komissiyasının, Beynəlxalq Telekommunikasiya İttifaqının, Beynəlxalq Olimpiya və Avropa Olimpiya komitələrinin, Beynəlxalq Atçılıq Federasiyasının, "BBC Global News"un, BP şirkətinin ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini, xarici ölkələrin Azərbaycanda təyin olunmuş səfirlərini qəbul etməsinə dair informasiyalar da yer alıb.

Azərbaycan Prezidentinin paytaxtımızda keçirilən bir sıra beynəlxalq tədbirlərdə söylədiyi nitqlərin, "Euronews" və "Rossiya-24" telekanallarına müsahibələrinin mətnləri ilə 66-cı kitabda tanış olmaq mümkündür.

Nəşrdə, həmçinin dövlətimizin başçısının Uşaqların III Ümumrespublika Forumunun, "Dini tolerantlığın möhkəmləndirilməsi (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)" mövzusunda beynəlxalq konfransın, "Beynəlxalq Antikorrupsiya Akademiyasına üzv dövlətlərin assambleyası"nın III sessiyasının, "XXI əsrdə sənayeləşmə: sənaye siyasətində əsas trendlər, müasir yanaşma və təcrübələr" mövzusunda beynəlxalq konfransın, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin təhsil nazirlərinin III görüşünün, "Bakutel-2014" XX Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisi və konfransının, Azərbaycan Alimlərinin I Qurultayının iştirakçılarına məktubları, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, Azərbaycanın Pravoslav xristian icmasına İsa Peyğəmbərin mübarək mövludu - müqəddəs Milad bayramı münasibətilə təbrikləri, digər müraciətləri və məktubları toplanıb.

Kitabda Prezident İlham Əliyevin Heydər məscidinin açılışı mərasimində nitqi, bu tədbirdə iştirak etmək üçün ölkəmizə gəlmiş Rusiya Federasiyası Şimali Qafqaz respublikalarının din xadimləri ilə görüşünə dair informasiyalar da yer alıb. Bu kitabın əhatə etdiyi dövrün materiallarında "Bakı-2015" birinci Avropa Oyunlarına yüksək səviyyədə hazırlıqla bağlı görülən işlər haqqında informasiyalar əldə etmək olar.

Çoxcildliyin bu kitabına Prezident İlham Əliyevin məcburi köçkünlər üçün Gəncədə salınan yeni qəsəbənin açılışı mərasimində iştirakına, Sumqayıt şəhərinə, Şəmkir, Sabirabad rayonlarına səfərlərinə, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Sabirabad regional "ASAN xidmət" mərkəzinin, "ASAN Könüllüləri"nin I Ümumrespublika Forumunun açılışı mərasimlərində iştirakına, bölgələrdə ictimaiyyət nümayəndələri ilə görüşlərinə, infrastruktur obyektlərinin, sənaye və mədəniyyət müəssisələrinin təməlqoyma və açılış mərasimlərində iştirakına dair materiallar, Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında giriş və yekun nitqlərinin mətnləri daxil edilib.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri də verilib.

"Azərnəşr" tərəfindən buraxılan 66-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin perspektivləri müzakirə edilib

Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi vasitəsilə əvvəlki illə müqayisədə 100 dəfə çox yük daşınıb.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu barədə iqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev "Rusiya Dəmir Yolları" ASC-nin baş direktorunun birinci müavini Aleksandr Mişarin ilə görüşündə deyib.

Görüşdə Şahin Mustafayev Azərbaycan-Rusiya əlaqələrinin bütün istiqamətlərdə, o cümlədən iqtisadi-ticari, nəqliyyat sahələrində uğurla inkişaf etdiyini vurğulayıb. Qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin sentyabrın 1-də Rusiya Federasiyasına rəsmi səfəri, səfər çərçivəsində keçirilmiş görüşlər və imzalanmış 17 sənəd əməkdaşlığın genişləndirilməsində xüsusilə önəmlidir.

Nəqliyyat sahəsinin Azərbaycan-Rusiya əməkdaşlığının əhəmiyyətli istiqamətlərindən olduğunu qeyd edən nazir dövlət başçılarının görüşündə də bu məsələnin diqqət mərkəzində olduğunu bildirib. O, səfər zamanı özündə beş yol xəritəsini əhatə edən "Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə 2024-cü ilədək Fəaliyyət Planı"nın imzalandığını və sənədin nəqliyyat sahəsində əməkdaşlığın inkişafı üzrə Yol Xəritəsi bölməsində Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı üzrə tərəflərin qarşılıqlı əməkdaşlığının xüsusi qeyd edildiyini vurğulayıb.

Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin hər iki ölkə üçün əhəmiyyətini diqqətə çatdıran iqtisadiyyat naziri bu sahədə görülən işlər, o cümlədən nəqliyyat dəhlizi üzrə dəmir yolu xəttinin tikintisinə dair fikirlərini bölüşüb. Bildirib ki, Rusiya ilə birgə həyata keçirilən Samur çayı üzərində körpünün tikintisi hazırda davam edir. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin əlaqələrin genişləndirilməsi və tranzit daşımalarının artırılması sahəsində önəmini vurğulayan nazir nəqliyyat dəhlizi vasitəsilə əvvəlki illə müqayisədə 100 dəfə çox yük daşındığını qeyd edərək, Şərq-Qərb nəqliyyat dəhlizi üzrə əməkdaşlıq imkanlarını diqqətə çatdırıb.

"Rusiya Dəmir Yolları" ASC-nin baş direktorunun müavini A.Mişarin Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin önəmli layihələrdən olduğunu vurğulayıb, bu istiqamətdə dəmir yolu xəttinin tikintisinə dair işçi qrupunun yaradılması və digər məsələlərə dair fikirlərini bildirib.

Gəncədəki körpələr evi-uşaq bağçalarının vəziyyəti müzakirə edilib

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov şəhərdə fəaliyyət göstərən körpələr evi-uşaq bağçalarının rəhbərləri ilə görüşüb.

Şəhər icra hakimiyyətindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, uşaq bağçalarındakı ümumi vəziyyətin öyrənilməsi məqsədi daşıyan görüşdə bir sıra məsələlərə diqqət yetirilib.

Məlumat verilib ki, Gəncədə 42 körpələr evi-uşaq bağçası fəaliyyət göstərir. Onlardan da cəmi 8-i tam təmirlidir. Digər 34 körpələr evi-uşaq bağçasında əsaslı təmir-tikinti işlərinə ehtiyac var. Bu binalarda istilik sistemlərinin nasaz vəziyyəti, avadanlıqların köhnə olması uşaqlarla təlim-tərbiyə işinin müasir standartlar səviyyəsində qurulmasına imkan vermir.

Bunlarla bərabər qida təminatı məsələsi də müzakirə edilib. Bildirilib ki, qiymətlərin münasib olmaması və vaxtaşırı ləngimələrin yaşanması körpələr evi-uşaq bağçalarında qida normasının pozulmasına gətirib çıxarır və bütün bu hallar valideynlərin haqlı narazılığına səbəb olur.

Görüşdə Gəncədə körpələr evi-uşaq bağçalarına tələbatın yüksək olduğu, lakin qrupların və pedaqoji kadrların çatışmadığı da qeyd edilib.

Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov körpələr evi-uşaq bağçalarında işin müasir tələblər səviyyəsində qurulması üçün, ilk növbədə, sağlam psixoloji mühitin və valideynlərlə səmimi münasibətin formalaşdırılmasının vacibliyini vurğulayıb.

Görüşdə qaldırılan problemlərin qısa zamanda həll olunması üçün aidiyyəti qurum və şəxslərə göstərişlər verilib. Səslənən bir sıra təklif isə baxılması və dəyərləndirilməsi üçün qeydiyyata alınıb.

Problemli aktivlərin əvəzində əldə edilmiş nəqliyyat vasitələrindən səmərəli istifadə məsələsi Nazirlər Kabinetində müzakirə olunub

Sentyabrın 6-da Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun rəhbərliyi ilə aidiyyəti qurumların (İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, Bakı Nəqliyyat Agentliyi, "Aqrarkredit" QSC, "Azərbaycan Sənaye Korporasiyası" ASC) rəhbərlərinin iştirakı ilə "Aqrarkredit" QSC tərəfindən Azərbaycan Beynəlxalq Bankından alınmış problemli aktivlərin (borcların) əvəzində əldə edilmiş nəqliyyat vasitələrindən səmərəli istifadə məsələsi müzakirə olunub.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin dövlətə məxsus səhmlərinin özəlləşdirilməyə hazırlanması ilə bağlı sağlamlaşdırılma tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 15 iyul tarixli 570 nömrəli Fərmanının icrasının təmin edilməsi istiqamətində müzakirələr aparılıb və aidiyyəti qurumların rəhbərlərinə konkret tapşırıqlar verilib.

Eldar İbrahimov: Prezident İlham Əliyevin Rusiyaya səfəri iki ölkə arasında münasibətlərin daha da inkişafına təkan verəcək

"Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfərinin zəngin proqramı, iki ölkə prezidentlərinin görüşlərində müzakirə olunan məsələlərin geniş spektri dövlətlərimiz arasında münasibətlərin inkişafı üçün yeni və daha dinamik bir dönəmin başlandığını göstərir". Bu fikri Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov deyib.

E.İbrahimov bildirib ki, Azərbaycan və Rusiya prezidentlərinin mətbuata bəyanatlarındakı fikirləri də bir daha sübut edir ki, hər iki dövlətin başçıları münasibətlərin inkişafında, əməkdaşlığın ölkə həyatının bütün istiqamətləri üzrə genişləndirilməsində maraqlıdır və qərarlıdırlar.

"Azərbaycanla Rusiya arasında tarixən qonşuluq, dostluq münasibətləri mövcud olub. Prezidentlərin Soçi görüşü də bu münasibətlərin, iki ölkə arasında qarşılıqlı əlaqələrin məntiqi davamıdır. Fikrimcə, proseslər bundan sonra da məhz bu istiqamət üzrə davam edəcək. Dərin köklərə və möhkəm dayaqlara malik olan münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsindədir. Bu münasibətlər səmimi, qarşılıqlı etimad və etibar üzərində qurulub, möhkəmlənib" - deyə, YAP İdarə Heyətinin üzvü vurğulayıb **.**

Onun sözlərinə görə Azərbaycan Prezidentinin səfərinin uğurlu nəticəsini müəyyənləşdirən amillərdən biri də, şübhəsiz ki, iki ölkə arasında imzalanan sənədlərin qarşılıqlı əməkdaşlığın bütün istiqamətlərini əhatə etməsidir.

E.İbrahimov vurğulayıb ki, səfərin ən mühüm və vacib məqamlarından biri də uzun illərdir davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin iki dövlətin rəhbərləri səviyyəsində bir daha geniş müzakirə olunması, konfliktin çözümü ilə bağlı ümidverici, danışıqlar prosesinə impuls verəcək notların səsləndirilməsidir: **"Bu baxımdan hesab edirəm ki, cənab Prezidentin Rusiyaya bu səfəri beynəlxalq birlik tərəfindən tanınmış ərazilərimizin işğaldan azad edilməsi prosesinə də ciddi təkan verəcək. BMT Təhlükəsizlik Şurasının daimi üzvü, ATƏT-in Minsk qrupunun həmsədri olan Rusiyanın bu prosesdə mühüm rola malik olduğu kimsəyə sirr deyil. Rusiya Prezidenti Vladimir Putinin öz bəyanatlarında ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına bütün mümkün köməyi göstərməkdə davam edəcəyini bildirməsi, Azərbaycanın artan önəminə və regionda davamlı sabitliyin qorunmasına, təhlükəsizliyin təmin edilməsinə diqqət çəkməsi də rəsmi Moskvanın bu istiqamətdə fəallığını nəzərəçarpacaq dərəcədə artıracağına ümid verir. Mətbuata bəyanatda Prezident İlham Əliyevin səsləndirdiyi "Rusiya bizim qonşumuz, tarixi tərəfdaşımız və dostumuzdur. Biz ümid edirik ki, münaqişənin nizamlanmasında Rusiyanın səyləri davam edəcək" fikirləri də münaqişənin sülh, danışıqlar yolu ilə həllinə ümidləri artırır. Deməli, hələ də münaqişənin danışıqlar, sülh yolu ilə həlli perspektivləri qalmaqdadır. Odur ki, böyük qonşumuz və strateji tərəfdaşımız olan Rusiyadan bu istiqamətdə əməli addımları gözləyirik".**

Məhərrəmlik ayı ilə əlaqədar həyata keçiriləcək təhlükəsizlik tədbirləri müzakirə olunub

Bakı Şəhər Baş Polis İdarəsində (BŞBPİ) Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ilə birgə Məhərrəmlik ayına dair tədbir keçirilib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Azərbaycandakı dini durum, bu sahədə baş verən proseslər, tendensiyalar, o cümlədən bəzi xarici ölkələr, onların nəzarətində olan mərkəzlər tərəfindən respublikamıza qarşı dini müstəvidə yönəlmiş təhdid və təsirlər müzakirə olunub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov tədbirdə çıxış edərək bildirib ki, Azərbaycanda ictimai-siyasi, o cümlədən dini durum sabitdir. Azərbaycan dövlətinin din sahəsindəki başlıca vəzifəsi vətəndaşlarımızın dini etiqad azadlığının yüksək səviyyədə təmin olunması, dövlətdin münasibətlərinin tənzimlənməsi və təkmilləşdirilməsidir. Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan milli təhlükəsizlik konsepsiyasının əsas elementlərindən olan dini təhlükəsizliyin təminatı ciddi əhəmiyyət kəsb edir. Dini təhlükəsizlik milli təhlükəsizliyin təminatında başlıca yer tutmaqla yanaşı, ictimai-siyasi asayişin daha mükəmməl təminatı üçün olduqca mühümdür.

S.Heydərov dini radikalizmin və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları barədə də ətraflı məlumat verib, bu sahədə Dövlət Komitəsinin digər qurumlar, o cümlədən hüquq mühafizə orqanları ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Dini radikalizmlə mübarizədə qabaqlayıcı, zəruri hallarda isə profilaktik tədbirlərin həyata keçirilməsinin vacibliyi vurğulanıb.

Qeyd edilib ki, zərərli dini ideologiyaların təsirinə məruz qalan şəxslərin ətrafında müvafiq tədbirlər həyata keçirilməklə onların reabilitasiyasına və cəmiyyətə reinteqrasiyasına diqqətin artırılması vacib məsələdir.

Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis general-mayoru Səhlab Bağırov çıxış edərək dini radikalizmə qarşı mübarizədə aidiyyəti qurumlarla, o cümlədən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə fəaliyyətin əhəmiyyətindən danışaraq, bu sahədə əldə olunmuş müsbət nəticələri qeyd edib.

S.Bağırov birgə fəaliyyətin daha da gücləndirilməsi, mütəmadi olaraq məlumat mübadiləsinin, eyni zamanda, Məhərrəmlik ayı ilə əlaqədar ictimai-siyasi asayişin qorunması ilə bağlı zəruri tədbirlərin bundan sonra da həyata keçiriləcəyini bildirib.

Sevinc Fətəliyeva: Azərbaycan türkdilli ölkələr arasında əlaqələrin güclənməsində maraqlıdır

Azərbaycan bütün türkdilli dövlətlərlə geniş münasibətlərə malikdir. Ümumilikdə, Azərbaycan türkdilli ölkələr arasında əlaqələrin güclənməsində maraqlıdır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyasının (YAP) beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. O bildirib ki, Qırğızıstanın Çolpon-Ata şəhərində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Zirvə görüşündə Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin əhəmiyyətini xüsusi vurğulayıb.

Deputat qeyd edib ki, türkdilli xalqları bir-birinə tarixi, milli, dini və mədəni köklər bağlayır. Bu səbəbdən də münasibətlərimiz dostluq və qardaşlıq prinsiplərinə əsaslanır. Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana səfəri zamanı aparılan müzakirələr bunu bir daha təsdiqləyir.

"Vacib məqamlardan biri də odur ki, beynəlxalq müstəvidə də türkdilli dövlətlər bir-birini hər zaman fəal surətdə dəstəkləyir. Hesab edirəm ki, VI Zirvə görüşü ölkələrimiz və xalqlarımız arasında əlaqələri daha da gücləndirəcək", - deyə S.Fətəliyeva vurğulayıb.

Türkdilli dövlətlər arasında müxtəlif sahələri əhatə edən çoxşaxəli münasibətlər uğurla inkişaf edir

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Zirvə görüşü türkdilli dövlətlər arasında əməkdaşlığın dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir

***Nizami Cəfərov*:** Zirvə görüşü türkdilli dövlətlər arasında əməkdaşlıq əlaqələrinin inkişafına xidmət edir

***Jalə Əliyeva*:** Türkdilli dövlətlər arasında əlaqələrin genişlənməsi istiqamətində mühüm işlər görülüb və ciddi nəticələr əldə edilib

Yeni geostrateji şəraitdə dünya siyasəti və beynəlxalq münasibətlər sistemində fundamental dəyişikliklər baş verir. Bu dəyişikliklər xalqlar, dövlətlər qarşısında yeni çağırışlar yaratmaqla yanaşı, regional əməkdaşlıq və beynəlxalq təhlükəsizlik məsələlərinin daha da aktuallaşmasını şərtləndirib. Belə şəraitdə türkdilli dövlətlər arasında müxtəlif sahələri əhatə edən əməkdaşlığın dərinləşdirilməsi və birliyin daha da möhkəmləndirilməsi də strateji əhəmiyyətə malikdir. Sentyabrın 3-də Qırğız Respublikasının Çolpon-Ata şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) VI Zirvə görüşünün keçirilməsi türkdilli dövlətlər arasında müxtəlif sahələri əhatə edən əlaqələrin daha da gücləndirilməsi və münasibətlərin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır.

AZƏRBAYCAN İLƏ TÜRKDİLLİ DÖVLƏTLƏR ARASINDA SƏMƏRƏLİ ƏLAQƏLƏR MÜTƏMADİ OLARAQ MÖHKƏMLƏNİR

Avrasiyanın mühüm geostrateji məntəqələrindən biri olan Cənubi Qafqazın lider dövləti kimi çıxış edən Azərbaycan yeni geosiyasi şəraitdə özünün çoxvektorlu və balanslaşdırılmış xarici siyasət kursu ilə həm ikitərəfli münasibətlər kontekstində, həm də çoxşaxəli əlaqələr fonunda regional miqyaslı, qlobal xarakterli əməkdaşlıqlar platformasının mərkəzi oyunçusu rolunu oynamaqdadır. Praqmatik xarici siyasət Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsinə, əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin inkişafını təmin edir, eyni zamanda, perspektiv nailiyyətlər üçün strateji zəmin rolunu oynayır.

Bu məqamda qeyd etmək lazımdır ki, Azərbaycan türkdilli dövlətlərlə də həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinə malikdir. Bu əlaqələr, əsas etibarilə, siyasi, iqtisadi, nəqliyyat, energetika, ticarət və humanitar sahələri əhatə etməkdədir və bütün istiqamətlərdə əhəmiyyətli nəticələr əldə olunub. Bəhs olunan Zirvə görüşündə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd edib ki, Azərbaycan bütün türkdilli dövlətlərlə sıx əlaqələr saxlayır: **"Bu əlaqələr gündən-günə möhkəmlənir və genişlənir. Bizim əlaqələrimiz siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, humanitar sahələri əhatə edir və biz bütün istiqamətlər üzrə gözəl nəticələr görürük. Ölkələrimiz beynəlxalq təşkilatlarda da bir-birinə dəstək verir və bu dəstək çox önəmlidir. Hesab edirəm ki, gələcək illərdə beynəlxalq təşkilatlar çərçivəsindəki fəaliyyətimizlə bağlı əlavə addımlar atılacaqdır".**

Azərbaycan türkdilli dövlətlər arasında iqtisadi əməkdaşlığın inkişafı və dərinləşdirilməsinə də xüsusi əhəmiyyət verir. Şübhəsiz ki, bu, bütün türkdilli dövlətlər üçün strateji önəm kəsb edir. Dünya iqtisadiyyatında ciddi dəyişikliklərin, eləcə də yeni qlobal çağırışların meydana çıxdığı şəraitdə türkdilli dövlətlər arasında ticarət dövriyyəsinin artırılması, investisiya layihələrinin reallaşdırılması, qarşılıqlı investisiya qoyuluşunun təşviqi üçün yeni mexanizmlərin işlənməsi böyük əhəmiyyətə malikdir. Xüsusi olaraq vurğulamaq gərəkdir ki, çox əlverişli sərmayə mühitinə sahib olan Azərbaycan həm də qardaş ölkələrə, ilk növbədə, Türkiyəyə böyük investisiyalar qoyur. Bu həm qarşılıqlı faydalı münasibətlərin, həm də iqtisadi əməkdaşlığın inkişafı baxımından müstəsna əhəmiyyət daşıyır. Azərbaycan bununla həm özünün iqtisadi maraqlarını təmin edir, həm də sərmayə yatırdığı ölkələrdə yeni imkanlar yaradır. Ekspertlər qeyd edirlər ki, qarşılıqlı investisiya qoyuluşunun təşviqi olduqca mühüm əhəmiyyətə malikdir. Çünki bu, türkdilli dövlətlər arasında əməkdaşlığın dərinləşdirilməsinə və nəticə etibarilə birliyin möhkəmləndirilməsinə xidmət edir.

Türkdilli dövlətlər arasında humanitar məsələlərlə bağlı əməkdaşlıq da xüsusi əhəmiyyət kəsb edir. Bu kontekstdə TÜRKSOY-un, Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətinin də yüksək səviyyədə olduğu vurğulanmalıdır.

EKSPERTLƏR TÜRKDİLLİ DÖVLƏTLƏR ARASINDA ƏLAQƏLƏRİN GENİŞLƏNMƏSİ İSTİQAMƏTİNDƏ ATILAN ADDIMLARIN STRATEJİ ÖNƏM KƏSB ETDİYİNİ BİLDİRİRLƏR

Ekspertlər türkdilli dövlətlər arasında əlaqələrin genişlənməsi istiqamətində atılan addımların strateji önəm kəsb etdiyini bildirirlər. Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, Milli Məclisin deputatı Nizami Cəfərov qeyd edib ki, Qırğızıstanın Çolpon-Ata şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Zirvə görüşünün keçirilməsi mühüm hadisədir. Onun sözlərinə görə, Zirvə görüşü türkdilli dövlətlər arasında əməkdaşlıq əlaqələrinin inkişafına xidmət edir: **"Bütövlükdə, türkdilli dövlətlər arasında münasibətlərin daha da güclənməsi xüsusi diqqət mərkəzindədir. Təsadüfi deyil ki, bu istiqamətdə ardıcıl olaraq məqsədyönlü və önəmli addımlar atılır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyəti də bu prosesin tərkib hissəsidir. Sevindirici haldır ki, artıq türk dövlətləri tərəfindən yaradılmış təşkilatlar beynəlxalq miqyasda özlərini tanıtmaqdadır. Bu, çox vacib məsələdir. Çünki qloballaşan dünyada türk xalqlarının birliyinin güclənməsi olduqca zəruridir".**

Türkdilli dövlətlərin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləməsinin də mühüm əhəmiyyətə malik olduğunu deyən N. Cəfərov əlavə edib: **"Türkdilli dövlətlər arasında siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat və humanitar sahələri əhatə edən münasibətlərin inkişafı təqdirəlayiq haldır".**

Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Jalə Əliyeva isə deyib ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Zirvə görüşünün keçirilməsi əlamətdar hadisədir və Zirvə görüşü bir sıra mühüm məqamlarla yadda qaldı: **"Zirvə görüşündə dövlət başçıları tərəfindən önəmli bəyanatlar verildi. Səsləndirilən fikirlər türkdilli dövlətlər arasında münasibətlərin uğurla inkişaf etdiyini və geniş perspektivlərə malik olduğunu göstərdi. Türkdilli dövlətlərin əməkdaşlığının genişləndirilməsi həm regional, həm də beynəlxalq miqyasda təhlükəsizliyin möhkəmləndirilməsinə əhəmiyyətli töhfələr verir. Ümumiyyətlə, türkdilli xalqlar arasında birliyin güclənməsi tarixi zərurətdir. Dünyada mürəkkəb proseslərin hökm sürdüyü şəraitdə bu birliyin əhəmiyyəti olduqca böyükdür".**

Millət vəkilinin sözlərinə görə, mövcud reallıqlara nəzər saldıqda görünür ki, türkdilli dövlətlər arasında əlaqələrin genişlənməsi istiqamətində mühüm işlər görülüb və ciddi nəticələr əldə edilib: **"Türkdilli Dövlətlərin Əlaqələndirmə Şurasının yaradılması da bu fəaliyyətin uğurlu nəticəsidir. Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın türkdilli ölkələrlə geniş əlaqələri mövcuddur. Ölkəmiz həm də bütün türkdilli ölkələr arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin daha da dərinləşməsində maraqlıdır. Çünki bu, çoxşaxəli münasibətlərin inkişafına xidmət edən mühüm amildir. Qarşılıqlı faydalı əlaqələrin daha da genişləndirilməsi üçün türkdilli dövlətlərin öz səylərini daha da gücləndirməsi xüsusi əhəmiyyət kəsb edir".**

Nurlan QƏLƏNDƏRLİ

Azərbaycan təhsili güclü maddi-texniki bazaya və kadr potensialına malikdir

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Pərvin Kərimzadə www.yap.org.az saytına müsahibə verib:

- Pərvin xanım, artıq ölkəmizdə yeni tədris ili başlamaq üzrədir. Hər il 15 sentyabr - Bilik Günü respublikamızda böyük təntənə ilə qeyd olunur. Bu baxımdan, qarşıdan gələn yeni tədris ili və bu ilə hazırlığın səviyyəsi ilə bağlı fikirlərinizi bildirməyi xahiş edirik...

- Bilik Gününün böyük bayram kimi qeyd olunması Azərbaycanda bir ənənəyə çevrilib. Hər bir xalqın, ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Buna görə də ölkəmizdə təhsilin müasir dünya standartları səviyyəsinə qaldırılması məqsədi ilə aparılan islahatlar uğurla davam etdirilir, təhsilin inkişafı və xalqımızın gələcəyi üçün sağlam vətəndaşların yetişdirilməsi ümummilli məsələyə çevrilib. Bu, ilk növbədə, dövlətin müəyyənləşdirdiyi təhsil strategiyasının tələbidir. Hansı sahədə fəaliyyət göstərməyimizdən asılı olmayaraq, hər birimiz bu ali məqsədin reallaşmasında yaxından iştirak etməliyik. Çünki xalqımızın gələcəyi və sivilizasiyalı dünyaya inteqrasiyasının yeganə yolu məhz təhsilin inkişafından keçir.

Sevindirici haldır ki, Azərbaycanda dinamik iqtisadi inkişafın sürətləndirilməsinə, cəmiyyət həyatının bütün sahələrində, xüsusi ilə də Azərbaycanın parlaq gələcəyinə hesablanan elm və təhsil sahəsində mütərəqqi islahatların aparılmasına böyük önəm verilir.

- Bildiyimiz kimi, təhsil sahəsinin inkişafı Azərbaycan dövləti üçün prioritet istiqamətlərdən biridir. Dövlətin təhsil sahəsində həyata keçirdiyi islahatları necə qiymətləndirirsiniz?

- Təhsil hər bir ölkə üçün strateji bir sahədir. Ulu öndər Heydər Əliyevin dediyi kimi, təhsil hər bir xalqın gələcəyidir. Təhsilsiz inkişaf ola bilməz. Bu mənada elm, təhsil hər bir ölkənin inkişafının əsasını təşkil edir. İnkişaf etmiş dövlətin qurulması üçün birinci amilin yüksək təhsil səviyyəsinin olmasını hesab edən ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən də Azərbaycan təhsilində sistemli islahatlar aparılaraq Ulu öndərin təhsil siyasəti uğurla davam etdirilir. Ölkədə təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Təhsilin bütün pillələrində - uşaq bağçalarında, məktəbdənkənar müəssisələrdə, orta məktəblərdə, kolleclərdə, peşə təhsilində, ali təhsil sahəsində, ali təhsildən sonrakı təhsil, əlavə təhsil sahəsində yeni layihələrin reallaşdırılması istiqamətində mühüm addımlar atılıb. Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə təhsil sahəsində həyata keçirilən islahatlar - təhsildə infrastrukturun yenilənməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, ümumtəhsil məktəblərinin kadr potensialının və tədrisin keyfiyyətinin yüksəldilməsi ölkədə təhsillə bağlı nəticələrə də müsbət təsir göstərib.

- Məlumdur ki, təhsilin inkişafı ilə bağlı müxtəlif proqramlar həyata keçirilir. Bu proqramların və islahatların təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası baxımından əhəmiyyəti nədən ibarətdir?

- Bu gün təhsil sistemində aparılan islahatlar artıq öz nəticələrini verməyə başlayıb. Azərbaycan təhsili güclü maddi-texniki bazaya, kadr potensialına malikdir. Bu sahələrdə əldə olunmuş nailiyyətlər dünyanın sivil ölkələri ilə müqayisə olunmağa layiqdir. Artıq ölkəmiz getdikcə öz milli-mənəvi dəyərlərini, tarixi ənənələrini qoruyaraq Avropa təhsilinə daha sürətlə inteqrasiya olunur. Bu gün Azərbaycan təhsili, mədəniyyəti dünya sivilizasiyasına tam cavab verən səviyyədədir. Boloniya sistemi təhsilimizin Avropaya inteqrasiyası baxımından faydalı addımdır.

Azərbaycanda gənclər bu yolla gedib dünyanın müxtəlif ölkələrində bir il, bir semestr təhsil alıb, dünya təhsil prosesini görürlər. Həmçinin Erasmus proqramı çərçivəsində Avropa ölkələri ilə müəllim-tələbə mübadiləsi həyata keçirilirdi ki, bu da ölkədə ali təhsilin inkişafına öz təsirini göstərdi. Hazırda isə Erasmus+ proqramı çərçivəsində Şərq Tərəfdaşlığı ölkəsi olan Azərbaycanın ali təhsil müəssisələri birgə magistratura proqramları, Kredit mobilliyi (keçmiş "Erasmus Mundus"), Potensialın gücləndirilməsi layihələri (keçmiş "Tempus"), Jan Mone Proqramı, Bilik Alyansları, Strateji Tərəfdaşlıq və Sektor Bacarıqları (müəyyən şərtlər ilə) kimi imkanlardan istifadə edəcək.

- Milli Məclisin ötən sessiyasında "Təhsil haqqında" qanuna bir sıra önəmli dəyişikliklər edildi. Qarşıdan gələn payız sessiyasında da təhsil qanunvericiliyində hansısa yeniliklərin edilməsi gözlənilirmi?

- "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 21 maddəsinə 60-dan çox dəyişiklik edilib və 2 yeni maddə əlavə olunub. Dəyişikliklər yalnız ümumi təhsili deyil, təhsilin bütün pillə və səviyyələrini əhatə edib. Belə ki, "Təhsil haqqında" qanunda təhsil müəssisələrində psixoloji xidmətin təşkili, fənn olimpiadalarının qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu, pedaqoji fəaliyyətlə məşğul olma, dövlət ümumtəhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması və digər məsələlərdə ciddi dəyişikliklər edilib. Ən böyük dəyişiklik 6 yaşı tamam olan uşaqların məktəbə qəbulu qaydalarında edilib. Həmin dəyişikliyə əsasən, 15 sentyabr - 31 dekabr tarixlərində 6 yaşı tamam olan uşaqlar ümumtəhsil məktəblərinin 1-ci sinfinə qəbul ediliblər. Ciddi müzakirələrə səbəb olan dəyişikliklərdən biri də beynəlxalq fənn olimpiadalarının, respublika fənn olimpiadalarının, yüksək səviyyəli beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunması ilə bağlıdır.

Qanunda peşə təhsili ilə bağlı da dəyişiklik var. Belə ki, bu gün xidmət və digər sahələrdə çalışan insanlar var ki, onların nə dərəcədə peşəkar səviyyədə olması bilinmir. Peşələri xüsusi adamların yanında çalışmaqla öyrənənlərin bununla bağlı hər hansı bir sənədi olmur. Yeni qaydaya görə, həmin şəxslər müraciət əsasında öz bilik və bacarıqlarını təsdiq etmək üçün müəyyən bir prosedurdan keçib sertifikat və bununla da əmək bazarına daxil olmaq üçün əlverişli imkan əldə edəcəklər. Bu da ölkədə peşə təhsili sisteminin daha da təkmilləşdirilməsinə, məşğulluq imkanlarının artırılmasına ciddi şəkildə müsbət təsirini göstərəcək. Qeyd edim ki, Milli Məclisin yaz sessiyasında "Peşə təhsili haqqında" qanun layihəsi qəbul olundu ki, bu da peşə təhsili sahəsi üzrə ən işlək sənədlərdən biri olacaq və peşə təhsilinin inkişafında mühüm rol oynayacaq və ölkədə peşə təhsilinin inkişafına stimul verəcək. Digər yenilik ali təhsilli şəxslərin ikinci dəfə təhsil alması ilə bağlıdır. Belə ki, ali təhsilli şəxs kolleclərə müsabiqədən kənar qəbul oluna biləcək. Bundan başqa, ölkə olimpiadalarının qaliblərinə də ali məktəbə qəbul zamanı güzəştlər veriləcək.

Həmçinin artıq xarici ölkələrdə təhsil almaq hüququ verən proqramlarda təhsil almış abituriyentlərin də Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələrinə qəbul olmaq imkanı var. "Ümumi təhsil haqqında" yeni qanun layihəsinin ilkin variantı oktyabr ayının ikinci yarısından sonra Milli Məclisin iclasında müzakirəyə təqdim olunacaq. Yeni qanun layihəsində orta məktəblərin hüquqi imkanları və idarə olunması, orta ümumi təhsil müəssisələrində özəl sektorun işinin tənzimlənməsi ilə bağlı müddəalar qeyd edilib. Qanun layihəsinə "müasir məktəb" anlayışı da əlavə ediləcək.

- Pərvin xanım, təmsil etdiyiniz Gəncə şəhərində təhsilin keyfiyyətinin daha da yüksəldilməsi və müasir təhsil infrastrukturu quruculuğu istiqamətində nə kimi işlər görülüb?

- Təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində atılan addımlar paytaxtla yanaşı, ən ucqar bölgələrdə də həyata keçirilir. Təsadüfi deyil ki, son 15 ildə respublika ərazisində heç bir dövrdə müşahidə olunmadığı qədər məktəb binası tikilib, bir çox məktəb binaları üçün yeni korpuslar inşa olunub, köhnə tədris müəssisələri bərpa və əsaslı təmir edilib.

Gəncə şəhərində də təhsil quruculuğu sahəsində görülən işlər təhsilin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına şərait yaradıb. Bunun nəticəsidir ki, hər il Gəncə şəhərində fəaliyyət göstərən təhsil müəssisələrindən ali məktəblərə qəbul olunan məzunların sayı artır. 2017-2018-ci tədris ilində Gəncə şəhəri üzrə ümumtəhsil məktəblərinin məzunlarından 1824 nəfəri qəbul imtahanlarında iştirak edib. Onlardan 1105 nəfəri ali təhsil müəssisələrinə qəbul olub. Qəbul imtahanlarında 358 məzun 200-300, 461 məzun 300-500, 174 məzun 500-600, 90 məzun 600-700 intervalda, 1 məzun isə maksimum nəticə - 700 bal toplayıb.

Rusiyalı ekspert: "Şimal-Cənub" layihəsi hazırda ən vacib birgə layihədir

"Şimal-Cənub" layihəsi hazırda ən vacib birgə layihədir. Bu layihədə Azərbaycan çox böyük rol oynayır.

Tanınmış rusiyalı ekspert, Siyasi İnformasiya Mərkəzinin analitiki İvan Pyatibratov bu sözləri AZƏRTAC-a müsahibəsində Azərbaycan dövlətinin başçısı İlham Əliyevin sentyabrın 1-də Soçiyə səfərinin və Rusiya Prezidenti Vladimir Putin ilə danışıqlarının yekununu şərh edərkən söyləyib.

O deyib: **"Bu cür görüşlər ölkələrimizin liderləri üçün artıq ənənəvi hal alıb. İlham Əliyevin Rusiyaya səfəri Onun Rusiya tərəfinə və şəxsən Vladimir Putinə etimadının göstəricisidir. Belə olmasaydı, onların görüşü hər hansı beynəlxalq forum çərçivəsində neytral ərazidə keçirilərdi. Görüşlərin müntəzəm keçirilməsi və yeni sazişlərin imzalanması ilə başa çatması onu göstərir ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji xarakter daşıyır və uzunmüddətli planlara əsaslanır".**

Ekspert Soçi görüşünün nəticələrindən söhbət açaraq deyib: **"Rusiya ilə Azərbaycan arasında iqtisadi münasibətlərin inkişafı yeni təkan alıb. Azərbaycanda "QAZ" avtomobillərinin yığma sahəsinin inşa edilməsi, "Qoşadaş" qaz yatağının və Xəzər dənizinin təkindəki bir hissənin "Rosneft" və SOCAR tərəfindən birgə öyrənilməsi layihələri ölkələrimizi ən mühüm sahələrdən biri olan neft-qaz və maşınqayırma sahəsində, deməli, siyasi baxımdan da yaxınlaşdırır. Qeyd etmək lazımdır ki, bu layihələrin həyata keçirilməsi üçün illərlə vaxt tələb olunur. Bu, dövlətlərimiz arasında münasibətlərin strateji xarakterini bir daha vurğulayır".**

İ.Pyatibratov "Şimal-Cənub" layihəsinin əhəmiyyətini də qeyd edib: **"Bu cür uzunmüddətli layihələr onların iştirakçılarını öz daxili və xarici siyasətlərini əlaqələndirməyə, maksimum səmərəli əməkdaşlığa və gələcəyi birgə qurmağa sövq edir. Bununla əlaqədar, deyə bilərəm ki, indiki mərhələdə ölkələrimizin aşkar yaxınlaşması çox cəhətdən məhz bu meqalayihə üzərində işlə bağlıdır. Həmin meqalayihə Rusiya üçün geosiyasi baxımdan - siyasi və iqtisadi təsir vektorlarının şaxələndirilməsi vasitəsi kimi, Azərbaycan üçün isə iqtisadi baxımdan - öz mallarının yeni bazarlara, ilk növbədə, Avropa bazarlarına çıxarılması yolu kimi, habelə respublikanın regionda ən mühüm qovşağa çevrilməsinə kömək edən amil kimi əhəmiyyətlidir. Beləliklə, Rusiya ilə Azərbaycan arasında münasibətlərin tədricən, lakin düzgün istiqamətdə möhkəmlənməsini, ölkələrimizin müştərək gündəliyinin formalaşmasını və qarşılıqlı maraqlar nəzərə alınmaqla əlaqələndirilməsini müşahidə edirik".**

Mamuka Baxtadze: Azərbaycan ilə münasibətlərin daha da dərinləşməsi üçün birgə fəaliyyət planı hazırlanır

Bizə yaxın qonşu və dost ölkə olan Azərbaycana səfərim çox məhsuldar və hər iki tərəf üçün çox mühüm bir səfər oldu.

Gürcüstan Baş nazirinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu sözləri Baş nazir Mamuka Baxtadze hökumətin sentyabrın 6-da keçirilən yüksək səviyyəli iclasında səsləndirib. Onun sözlərinə görə, Bakıda Azərbaycan ilə Gürcüstan arasında birgə iqtisadi layihələr və bu sahədə mövcud olan bəzi problemlər müzakirə edilib.

Baş nazir deyib: **"Bilirsiniz ki, bizim ölkələrimiz arasında azad ticarət əlaqələri var. Amma bəzi çatışmazlıqlar da mövcuddur. Azərbaycan ilə azad ticarət rejimini genişləndirmək və xidmət sahəsində münasibətləri dərinləşdirmək bizim üçün vacibdir. Hər iki tərəf ticarət dövriyyəsini yaxın iki il ərzində 50-60 faiz artırmağı qarşıya məqsəd qoyub. Bu fakt ticarət dövriyyəmizin daha da genişləndirilməsinə yeni stimul verməlidir".**

M.Baxtadze, eyni zamanda, təhsil və mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb və Bakıda bu məsələnin də müzakirə mövzusu olduğunu bildirib.

Baş nazir yeni regional layihələrin, o cümlədən enerji sektoruna aid layihələrin bundan sonra da fəal şəkildə müzakirə olunacağını xüsusi qeyd edib. Bildirib ki, Bakıya səfəri çərçivəsində Avropa və Çin ilə olduğu kimi, Azərbaycanla da azad ticarət zonasının yaradılmasına dair müqavilənin daha effektiv olmasına təkan verəcək yeni birgə müəssisələrin yaradılması barədə razılıq əldə edilib.

"Münasibətlərimizin gələcəkdə daha da dərinləşməsinə dair birgə fəaliyyət planının hazırlanması barədə razılığa gəlmişik və bu istiqamətdə işlər davam edir", - deyə Mamuka Baxtadze vurğulayıb.

Azərbaycan idmançısı III Dünya Köçəri Oyunlarında qızıl medal qazanıb

Azərbaycan idmançısı Cəlal Süleymanov (60 kq) Qırğızıstanın ev sahibliyi etdiyi III Dünya Köçəri Oyunlarında milli güləş növü üzrə yarışda qızıl medal qazanıb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, finala vəsiqə uğrunda qazaxıstanlı rəqibinə qalib gələn Cəlal Süleymanov dünən keçirilən həlledici görüşdə Qırğızıstan təmsilçisini məğlubiyyətə uğradaraq qızıl medala sahib olub.

Qızıl medalı güləşçimizə III Dünya Köçəri Oyunlarına Azərbaycandan qonaq kimi dəvət edilən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli təqdim edib.

Azərbaycandan dəvət olunan nümayəndə heyətinin digər üzvləri - Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu və "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov da fəxri kürsüdə yer alan idmançılara medallar təqdim ediblər.

"Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid və "Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev də yarışları izləyirlər.

Beləliklə, Azərbaycan milli komandası III Dünya Köçəri Oyunlarında qazandığı medalların sayını 14-ə çatdırıb. Medalların 1-i qızıl, 5-i gümüş, 8-i bürüncdür.

Darxan Kıdırəli yenidən Beynəlxalq Türk Akademiyasının prezidenti təyin olunub

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Zirvə görüşündə dövlət başçılarının qərarı ilə Beynəlxalq Türk Akademiyasının (TWESCO) prezidenti Darxan Kıdırəli ikinci müddətə bu qurumun rəhbəri təyin olunub.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Qırğızıstanın Çolpan-Ata şəhərində keçirilən VI Sammitində Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan prezidentləri Beynəlxalq Türk Akademiyasının işini yüksək dəyərləndiriblər.

Sammit iştirakçıları ötən dörd il ərzində Akademiyanın gördüyü işlər, irəli sürdüyü layihələr və qazandığı uğurların önəmini xüsusi vurğulayıblar. Qeyd olunub ki, qısa müddətdə türk dünyasının tarixini əhatə edən səmərəli elmi-praktiki konfranslar təşkil edilib, arxeoloji qazıntılar aparılıb. Türk Şurasına üzv dövlətlərin orta məktəblərində tədris olunacaq "Ortaq türk tarixi" dərsliyi, "Atalar mirası", "Türk barometr" layihələri, BMT-də və UNESCO-da türk dünyasının mədəniyyət, ədəbiyyat və tarixi şəxsiyyətləri ilə bağlı keçirilən beynəlxalq simpoziumlar, forumlar, 90-dan çox elmi əsərin işıq üzü görməsi Akademiyanın türk dünyasına bəxş etdiyi töhfələrdəndir. TWESCO-nun fəaliyyətinə dövlət başçıları tərəfindən verilən yüksək qiymət Sammitin yekununda qəbul olunan bəyannamədə də əksini tapıb.

Qeyd edək ki, Akademiya son iki ildə Azərbaycan ilə bağlı fəaliyyətini xeyli genişləndirərək müxtəlif layihələr həyata keçirib. Prezident İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi nəzərə alınaraq, Parisdə, UNESCO-nun mənzil qərargahında təşkil olunan beynəlxalq forum çərçivəsində Cümhuriyyətin yaradılmasının 100 illik yubileyi qeyd edilib. Ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə Astanada qazax dilində çapdan çıxan "Elinə yol açmış" kitabının təqdimatı keçirilib. Kitaba "Ön söz"ü Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev yazıb. Eyni zamanda, Astanada III "Böyük Çöl" Beynəlxalq Humanitar Forumu çərçivəsində Forumun bir paneli Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinə həsr edilib.

TWESCO hazırda "Ortaq türk ədəbiyyatı", "Ortaq türk coğrafiyası" dərslikləri üzərində işləri davam etdirir.

Xatırladaq ki, Beynəlxalq Türk Akademiyası 2009-cu ildə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Naxçıvan Sammitində yaradılıb.

Azərbaycan İlahiyyat İnstitutu Heydər Əliyev İrsini Araşdırma Mərkəzi ilə birgə tədbir keçirib

Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) və Heydər Əliyev İrsini Araşdırma Mərkəzi "Azərbaycanda dini təhsil: reallıqlar və perspektivlər" mövzusunda birgə tədbir keçirib.

Aİİ-dən AZƏRTAC-a bildiriblər ki, institutun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Nahid Məmmədov, Aİİ-nin dosentləri Elvüsal Məmmədov, Anar Qafarov, ilahiyyat üzrə fəlsəfə doktoru Kövsər Tağıyev, Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin baş direktoru, siyasi elmlər üzrə fəlsəfə doktoru Fuad Babayev və mərkəzin əməkdaşı Gündüz Nəsibovun iştirakı ilə keçirilən tədbirdə mövzu ətrafında geniş diskussiya aparılıb.

Tədbirdə əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan din siyasətinin Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirildiyi vurğulanıb. Azərbaycan dövlətinin gənc nəslin sağlam ruhda böyüməsinə, savadlı və bilikli yetişməsinə xüsusi önəm verdiyini bildirən diskussiya iştirakçıları dünyəviliyi, modernləşməni qəbul etmiş ölkəmizdə dövlət-din münasibətlərinin sağlam əsaslar üzərində qurulduğunu vurğulayıblar. Bildirilib ki, Azərbaycan xalqının inanc tarixinə nəzər saldıqda dini radikalizmin izlərinə, demək olar ki, rast gəlinmir. Lakin dünyada bir çox radikal dini qrupların fəaliyyət göstərdiyini və bu qrupların Azərbaycana da sızmaq cəhdlərinin istisna olmadığını nəzərə alanda, ölkəmizdə dini maarifləndirmə aparılmasının zəruriliyi ortaya çıxır. Buna görə də İslam dini başda olmaqla, böyük dünya dinləri haqqında insanları düzgün maarifləndirmək, cəmiyyətdə belə qruplara qarşı immunitet yaratmaq kimi vacib vəzifələr yaranır. Bu səbəbdən, dünyanın inkişaf etmiş aparıcı ölkələrindəki kimi, orta məktəblərimizdə din haqqında ümumi məlumatların, İslam dininin olduğu kimi sağlam təməllər üzərindən tədris edilməsi vacib tələbə çevrilib. Qeyd olunub ki, Aİİ-nin yaradılması dövlət müstəqilliyimizin bərpasından sonra din sahəsində qəbul edilmiş ən mühüm qərarlardan biridir.

Məlumat üçün bildirək ki, bu ali məktəb Prezident İlham Əliyevin 2018-ci il 9 fevral tarixli Sərəncamına əsasən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılıb. Aİİ-nin əsas məqsədi Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların və mütəxəssislərin hazırlanmasını təmin etməkdir.

Azərbaycan məhsullarının Çinə ixracı genişlənir

VI "Çin-Avrasiya" sərgisi çərçivəsində Azərbaycan məhsullarının Çinə ixracına dair ümumilikdə 14 razılıq əldə olunub.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev sentyabrın 6-da İqtisadiyyat Nazirliyinin dəstəyi və AZPROMO-nun təşkilatçılığı ilə Azərbaycan-Çin iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərə dair keçirdiyi mətbuat konfransında deyib.

Y.Abdullayev Azərbaycan-Çin iqtisadi əməkdaşlığının genişləndirilməsi, "Made in Azerbaijan" brendinin təşviqi, Azərbaycan məhsullarının Çin bazarlarına çıxarılması, ixracın stimullaşdırılması, həmçinin iki ölkənin iş adamları arasında əlaqələrin inkişafı sahəsində görülən işlər barədə məlumat verib. Qeyd edib ki, Azərbaycan sahibkarlarının VI "Çin-Avrasiya" sərgisində iştirakı da belə tədbirlərdəndir. Avqustun 29-dan sentyabrın 2-dək davam edən sərgidə Azərbaycanın qida, təbii mineral sular, şərab və digər spirtli içkilər, fındıq və qurudulmuş meyvə məhsulları "Made in Azerbaijan" vahid ölkə stendi ilə nümayiş olunub. 21 Azərbaycan şirkətinin təmsil olunduğu sərgidə Azərbaycan məhsulları ziyarətçilər tərəfindən böyük maraqla qarşılanıb.

"Sərgi çərçivəsində Azərbaycan məhsullarının Çinə ixracına dair danışıqlar aparılıb. Belə ki, Göygöl Şərab Zavodu və Çin şirkətləri arasında müzakirələr aparılıb, "Ayan" şirkəti ilə Sincan Ticarət Kommersiya şirkəti ilə 4,5 ton Azərbaycan limonadının ixracına dair razılığa gəlinib. Azərbaycanın "Gilan" şirkəti Çinin "Fenglian" şirkəti ilə müxtəlif növ kompot və meyvə şirələrinin satışına dair razılıq əldə edib. Azərbaycanda istehsal olunan bir çox məhsullar kimi, zeytun yağı da sərgidə iştirak edən xarici şirkətlərin diqqətini cəlb edib və 10 ton zeytun yağının Çinə ixracına dair "Azərsun Holding" şirkəti ilə razılığa gəlinib. Bundan başqa, Çinin "İxlas" distribüter şirkəti ilə Azərbaycanın qənnadı məmulatları istehsalçısı olan "Konfiron" MMC arasında danışıqlar aparılıb və ilkin razılaşma əldə olunub. Çinin "Hans Zhou", "TIAN SHENG HOLDINGS", "BEIJING REVIEW" kimi şirkətləri isə Azərbaycan fındığına böyük maraq göstərib və bu şirkətlərlə "Azhazelnut" şirkəti arasında ixraca dair danışıqlar aparılıb. Azərbaycanın "Eco-Dry" şirkəti isə alma qurusunun ixracına dair anlaşıb. Sərgi çərçivəsində ümumilikdə 14 razılıq əldə olunub", - deyə o bildirib.

Y.Abdullayev deyib ki, "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən 29 avqust - 3 sentyabr tarixlərində Çinin Urumçi şəhərinə ixrac missiyası təşkil edilib. Azərbaycan iş adamları çinli həmkarları ilə əməkdaşlıq imkanlarına, yerli məhsullarımızın Çinə ixracına dair müzakirələr aparıb, potensial müştərilərlə ikitərəfli görüşlər keçirib: **"İxrac missiyasına müsabiqə əsasında seçilmiş və qida, təbii mineral sular, şərab və digər spirtli içkilər, fındıq və qurudulmuş meyvə istehsalı sahəsində fəaliyyət göstərən Azərbaycan şirkətləri daxil olub. Bu, Çinə sayca 4-cü və ümumilikdə isə xarici ölkələrə təşkil edilən 16-cı ixrac missiyasıdır".**

O əlavə edib ki, Azərbaycan məhsullarının, o cümlədən şərab və digər spirtli içkilərin Çinə ixracının artırılması və istehsalın stimullaşdırılması məqsədilə İqtisadiyyat Nazirliyinin dəstəyi, AZPROMO-nun və Azərbaycanın Çindəki Ticarət Nümayəndəliyinin təşkilatçılığı ilə sentyabrın 2-də Çinin Urumçi şəhərində Azərbaycan Şərab Evi açılıb. Bu, Azərbaycanın xarici ölkədə açılan ilk Şərab Evidir.

Qeyd edək ki, Azərbaycan Şərab Evi Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, ölkəmizin məhsullarının ixracının dəstəklənməsi, ixracın həcminin və coğrafiyasının genişləndirilməsi, "Made in Azerbaijan" brendinin təşviqi, həmçinin Azərbaycanın şərab və digər spirtli içki məhsullarının Çin bazarında daha çox tanıdılması və satışının təşkili sahəsində fəaliyyət göstərəcək, bu sahədə əlaqələndirməni həyata keçirəcək. Şərab Evinin daimi fəaliyyət göstərən sərgisində xüsusi dadı və keyfiyyəti ilə seçilən müxtəlif növdə Azərbaycan şərabları nümayiş olunacaq.

Məlumat verilib ki, "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə artıq 3 ölkədə - Belarus, Latviya və Ukraynada Azərbaycan Ticarət Evi fəaliyyət göstərir. Azərbaycanın ilk ticarət evi 2017-ci ildə Belarusda açılıb. Ukrayna və Latviyadakı ticarət evləri isə bu il fəaliyyətə başlayıb. Ticarət evlərində Azərbaycan şirkətlərinin istehsal etdiyi müxtəlif növ məhsulların daimi sərgisi fəaliyyət göstərir. 2018-ci ilin sonunadək isə Birləşmiş Ərəb Əmirlikləri, Polşa, Çin, Qazaxıstan və Rusiyada Azərbaycanın ticarət və şərab evlərinin açılması nəzərdə tutulur.

Sonda jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

Azərbaycan İlahiyyat İnstitutunun yaradılması ölkəmizdə dinşünaslıq elminin yüksək səviyyədə öyrənilməsinə və bacarıqlı kadrların hazırlanmasına kömək edəcək

Millət vəkilləri institutun fəaliyyətə başlamasını yüksək qiymətləndirirlər

Azərbaycan Respublikası Prezidentinin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradılıb. İnstitutun yaradılma məqsədi Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini - mənəvi mühitin qorunub saxlanılması və inkişaf etdirilməsi, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasının təmin edilməsidir. Azərbaycan cəmiyyətinin ən müxtəlif təbəqələrindən olan insanlar, mütəxəssislər bu institutun yaradılmasını təqdir edir, Prezident İlham Əliyevin bu qərarının mühüm əhəmiyyət kəsb etdiyini vurğulayırlar.

Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib ki, Azərbaycan İlahiyyat İnstitutunun yaradılması ölkəmizdə dinşünaslıq elminin yüksək səviyyədə öyrənilməsinə və bu sahədə müasir tələblərə cavab verən hazırlıqlı kadrların hazırlanmasına kömək edəcək. O bildirib ki, institutda əsas dünya dinlərinin öyrənilməsi üçün şərait olacaq, həmçinin digər ölkələrin tanınmış dini elm mərkəzləri ilə ikitərəfli əlaqələrin yaradılmasına da imkan yaranacaq.

Millət vəkili Adil Əliyev də deyib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin İlahiyyat İnstitutunun yaradılması ilə bağlı bu ilin fevral ayında imzaladığı Sərəncam ölkəmiz üçün çox vacib əhəmiyyət daşıyır. O, İlahiyyat İnstitutunun Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tabeliyində fəaliyyətə başlamasının vacibliyini xüsusi vurğulayıb. Bir çox ölkələrdə radikalizm meyillərinin olduğunu, bunun nəticəsində Azərbaycana çox da uzaq olmayan ərazilərdə qarşıdurmaların, terror hadisələrinin tüğyan etdiyini, qanlı toqquşmalarda günahsız insanların qətlə yetirildiyini bildirən millət vəkili **"Görünür ki, bu ölkələr zamanında dindən suiistifadənin qarşısını ala bilməyib. Azərbaycan dünyəvi dövlət modelini seçib və dini tolerantlığı ilə seçilən ölkəmiz digərlərinə nümunədir. Ölkəmizdə müxtəlif dinlər varlıqlarını birgə sürdürür, dövlətin inkişafı üçün birgə çalışırlar. Buna baxmayaraq, biz diqqətli olmalı, radikal meyillərin ölkəmizə ayaq açmasına yol verməməliyik. Elə etməliyik ki, gənclərimiz dini təhsil üçün başqa ölkələrə üz tutmasınlar, radikal cərəyanların təsiri altına düşməsinlər. Bunu həyata keçirməyin yolu da məhz dini təhsilin Azərbaycanda təşkilindən keçir. Bu baxımdan, fəaliyyətə başlayan İlahiyyat İnstitutunun dini təhsil almaq istəyən gənclərimizin hamısını əhatə edəcəyini düşünür və instituta gələcək fəaliyyətində uğurlar arzulayıram. İlahiyyat İnstitutunda gənclərimiz adət və ənənələrimizi öyrənəcək, mövcud olan dinlər haqqında geniş informasiyalar əldə edəcək, ən başlıcası, İslam dininin elmi şəkildə bütün dərinliklərinə yiyələnəcəklər. İlahiyyat İnstitutunda təhsilin pulsuz olmasının da əhəmiyyəti böyükdür. Pul xərcləyib başqa ölkələrdə dini təhsilə üz tutmaqdansa pul xərcləmədən dini təhsili vətənində almağın üstünlüyü göz qabağındadır",** - deyə vurğulayıb.

Millət vəkili Rafael Cəbrayılov isə qeyd edib ki, təhsil müəssisələri yaratmaqla gənclərin təhsil alması, elm öyrənməsi nəinki müsbət bir haldır, həm də Qurani-Kərimin buyurduğu bir əməldir. Onun sözlərinə görə, monoteist dinlərin, o cümlədən İslamın və Qurani-Kərimin elmi şəkildə öyrənilməsini təmin edən müasir İlahiyyat İnstitutunun yaradılması yalnız Azərbaycan təhsili üçün deyil, həm də cəmiyyətimiz üçün mühüm bir hadisədir. İslam Universitetinin respublikamızda mövcud olması, uğurla fəaliyyət göstərməsi ilə yanaşı, İlahiyyat İnstitutunun da yaradılması ölkəmizdə dini təhsili daha da mükəmməlləşdirəcək.

Yaşar Əliyev Sülh Mədəniyyəti Forumunda Azərbaycanda tolerantlıq və sülh ənənələrindən danışıb

Azərbaycan milli və beynəlxalq səviyyələrdə mədəniyyətlərarası və dinlərarası dialoqun dəstəklənməsinə birinci dərəcəli əhəmiyyət verir.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın BMT yanında daimi nümayəndəsi Yaşar Əliyev bu fikirləri sentyabrın 5-də BMT-nin Yüksək Səviyyəli Sülh Mədəniyyəti Forumundakı çıxışında söyləyib.

2012-ci ildən başlayaraq hər il keçirilən Yüksək Səviyyəli Forumun əsas məqsədi düzgün insani münasibətlər kimi məlum olan sülh mədəniyyəti yaradılması sahəsində fəal çalışan vətəndaşların, beynəlxalq təşkilatların və hökumətlərin qlobal hərəkatını gücləndirməkdir.

Y.Əliyev bu mühüm forumun çağırılmasına görə BMT Baş Assambleyasının sədri Miroslav Layçaka təşəkkürünü bildirərək qeyd edib ki, beynəlxalq birliyin sülh mədəniyyətini dəstəkləməyə yönəlmiş səyləri Baş Assambleyanın müvafiq qətnamələrindən güclü impuls alıb. Bu qətnamələrdə əsas prinsiplər və öhdəliklər elan olunub, milli, regional və qlobal səviyyələrdə bir sıra tədbirlər müəyyən edilib.

"2030-cu ilə qədər olan dövrdə davamlı inkişaf sahəsində Gündəlik"də hər kəs üçün bərabər imkanlar verən dinc cəmiyyətlərin möhkəmlənməsinə nail olmaq üçün ambisiyalı oriyentirlər müəyyən edilir. Dünya birliyi sülhün bərqərar olmasına və qorunub saxlanmasına yönəlmiş səylərdə bütün ölkələrin bərabər səviyyədə iştirakının tərəfdarıdır, dünyanın təbii və mədəni müxtəlifliyini tanıyır və hesab edir ki, bütün mədəniyyətlər və sivilizasiyalar davamlı inkişafın dəstəklənməsinə öz töhfələrini verə bilər.

Azərbaycanlı diplomat vurğulayıb ki, sülh mədəniyyətinin təşviq edilməsi həm də münaqişələrin nizamlanması baxımından vacibdir. O qeyd edib ki, Azərbaycan münaqişələrin qarşısının alınması, böhranlı vəziyyətlərə vaxtında və təsirli münasibət bildirilməsi, üzv dövlətlərin sülhün dəstəklənməsinə, sabit və firavanlaşan cəmiyyətlər yaradılmasına yönəlmiş səylərində onlara kömək göstərilməsi üçün baş katibin səylərini tamamilə dəstəkləyir.

Azərbaycan mədəniyyətlər və sivilizasiyalar arasında təbii körpü rolu oynayır. Bu rol Azərbaycanda bir sıra səmərəli beynəlxalq tədbirlər keçirilməsində, dialoqun və qarşılıqlı anlaşmanın təşviqinə yönəlmiş mühüm təşəbbüslər irəli sürülməsində təzahür edib. Belə təşəbbüslərdən biri də Azərbaycanın rəhbərliyi altında uğurla həyata keçirilən, dinlərarası və mədəniyyətlərarası dialoq haqqında biliklərin mübadiləsi üçün genişmiqyaslı platformanı təmin edən Bakı prosesidir. Y.Əliyev bildirib ki, baş katib sülh mədəniyyətinə kömək, dinlərarası və mədəniyyətlərarası dialoq, sülh naminə anlaşma və əməkdaşlıq haqqında son məruzəsində mədəniyyətlərarası dialoqun təbliğində Bakı prosesinin mühüm rolunu xüsusi qeyd edib. Bakı prosesinin ayrılmaz tərkib hissəsi olan, iki ildə bir dəfə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Azərbaycan tərəfindən UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası, həmçinin Təhsil, Elm və Mədəniyyət Məsələlərinə dair İslam Təşkilatı ilə əməkdaşlıq şəraitində təşkil edilir.

Azərbaycanın BMT yanında diplomatik missiyasının rəhbəri qeyd edib ki, Baş Assambleya özünün 72/136 nömrəli, "Dinlərarası və mədəniyyətlərarası dialoqa, sülh naminə qarşılıqlı anlaşmaya və əməkdaşlığa kömək" adlı qətnaməsində mədəniyyətlərarası dialoqa yardım üçün mühüm qlobal platforma kimi Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna istinad edib. Bu il Bakı prosesi özünün 10 illiyini qeyd edir. Bu il 4-cü Yüksək Səviyyəli Humanitar Forum Bakıda hökumətlərin, beynəlxalq təşkilatların, alimlərin, gənclərin və vətəndaş cəmiyyətinin nümayəndələrinin iştirakı ilə bu kontekstdə keçiriləcək.

Mədəniyyətlərarası dialoqa, sülh mədəniyyətinə və multikulturalizmə dair uğurlu təşəbbüslərin həyata keçirilməsi üçün BMT və daha geniş beynəlxalq ictimaiyyət tərəfindən daimi dəstək dinc və inklüziv cəmiyyətlər qurulması, stereotiplərin və yanlış təsəvvürlərin aradan qaldırılması, kompleks inkişaf konsepsiyasının həyata keçirilməsi üçün böyük əhəmiyyət kəsb edir.

Y.Əliyev qeyd edib ki, Azərbaycan Respublikası qarşılıqlı anlaşmanın və müxtəlifliyə hörmətin dəstəklənməsinə yönəlmiş səylərini davam etdirməyə çalışır və bu məqsədlə əməkdaşlığın genişləndiriləcəyinə ümid edir.

Əmək, məşğulluq və sosial müdafiə sahələrində şəffaf və operativ xidmətlərin təşkili işləri gücləndiriləcək

Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində dövlət xidmətlərinin elektron texnologiyalar üzərində tam şəffaf və operativ şəkildə qurulmaqla, həmin sahələrdə innovativ idarəetmənin təmin edilməsi, korrupsiya, sui-istifadə və süründürməçilik hallarının qarşısının alınması Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq aparılan sistemli islahatların mühüm bir istiqamətini təşkil edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, dövlət başçısının bu il sentyabrın 5-də imzaladığı "Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında" Fərman bu istiqamətdə tədbirlərin daha geniş müstəvidə davam etdirilməsinə, əmək və sosial müdafiə sahələrində modern və çevik idarəetmənin, şəffaf və operativ xidmətlərin təşkili işlərinin gücləndirilməsi məqsədi daşıyır.

Fərmana əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya sistemləri əsasında "Mərkəzləşdirilmiş elektron informasiya sistemi" (MEİS) yaradılmaqla, üç ay müddətində "e-sosial" internet portalı formalaşdırılacaq ki, bu da nazirliyin fəaliyyət istiqamətləri üzrə əhaliyə göstərilən xidmətlərin vahid platforma üzərindən elektron formada təqdim edilməsinə imkan verəcək. Yeni "e-sosial" internet portalının yaradılması Azərbaycan Prezidenti tərəfindən ötən ay imzalanmış "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat

sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanın icrası olaraq, nazirliyin tabeliyində DOST (Dayanıqlı və Operativ Sosial Təminat) Agentliyinin və DOST mərkəzlərinin yaradılması üçün zəruri elektron infrastrukturun formalaşmasında xüsusi əhəmiyyət kəsb edir. Həmin infrastruktur əsasında əmək, məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik, pensiya, sosial sığorta və digər aidiyyəti sahələrdə xidmətlərin "bir pəncərə" prinsipi üzrə təkmil və sistemli, sadələşdirilmiş, eyni zamanda, bir-biri ilə əlaqələndirilmiş şəkildə, tam şəffaf, operativ və vətəndaşlarla açıq iş şəraitində əhaliyə təqdim edilməsi təmin olunacaq.

MEİS-də altı ay müddətində məşğulluq altsisteminin qurulması məşğulluq xidmətlərinin elektron şəkildə həyata keçirilməklə təkmilləşməsinə, bu xidmətlərin operativliyinə və şəffaflığına, işsiz və işaxtaranlara daha əlçatan olmasına, məşğulluq xidmətlərinin idarəedilməsi mexanizminin səmərəli təşkilinə şərait yaradacaq. Məşğulluq altsisteminin qurulması ölkədə vahid məşğulluq portalının yaradılmasında vacib alət kimi mühüm əhəmiyyət daşıyır.

Fərmanın icrası olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "e-sosial" internet portalı vasitəsilə aparılan əməliyyatların və fərdi məlumatların təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ilə birgə tədbirlərin görülməsi təmin olunacaq. Eyni zamanda, nazirlik Ədliyyə və Maliyyə nazirlikləri, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə razılaşdırmaqla üç ay müddətində MEİS və "e-sosial" internet portalı haqqında əsasnamələrin layihələrini, habelə pensiya təyinatının avtomatlaşdırılmasına, bu sahədə xidmətlərin elektron qaydada göstərilməsinə və vətəndaşların sosial sığorta stajının müəyyən edilməsinə dair qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcək.

Sənəddə, həmçinin müvafiq dövlət qurumları üçün bir sıra tapşırıqlar da müəyyən olunub. Bütün bunlarla yanaşı, Fərmanla əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində xidmətlərin elektron qaydada həyata keçirilməsi və pensiya təyinatının tam elektronlaşdırılmasına keçidlə əlaqədar Azərbaycan Respublikası qanunlarının təkmilləşdirilməsi üçün zəruri tədbirlər görüləcək.

Bakıda kənd təsərrüfatına dair beynəlxalq konfrans işə başlayıb

Sentyabrın 6-da Bakıda "Qafqazda və Mərkəzi Asiyada davamlı regional inteqrasiyanın təmin edilməsi üçün kənd təsərrüfatı sahəsində ticarət və xarici investisiyalar" mövzusunda beynəlxalq konfrans işə başlayıb.

AZƏRTAC xəbər verir ki, konfrans İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun və Almaniyanın İqtisadi Keçid Yaşayan Ölkələrdə Kənd Təsərrüfatının İnkişafı üzrə Leybnits İnstitutunun birgə təşkilatçılığı, Alman Elmi Mübadilə Xidmətinin (DAAD) dəstəyilə təşkil edilib.

İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun direktoru Vilayət Vəliyev Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" ilə müəyyənləşdirilmiş tədbirlər barədə məlumat verib. İnstitut direktoru, həmçinin Azərbaycanda rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalının genişləndirildiyini, ərzaq təhlükəsizliyinin dayanıqlığının gücləndirildiyini, aqrar sahə üzrə biznes mühitinin təkmilləşdirildiyini, kənd təsərrüfatı sahəsində elmi təminat və təhsilin keyfiyyətinin yüksəldiyini vurğulayıb.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) ixrac və bazarlar sektorunun iqtisadçısı Yekaterina Krivonos Gonzalesin keçmiş Sovet ölkələrində kənd təsərrüfatı üzrə ticarət siyasəti, Dünya Bankının nümayəndəsi Katerina Goyçuk Schroederin Mərkəzi Asiya ölkələrindən Çinə ixrac imkanlarına dair məruzələri dinlənilib.

İştirakçılara FAO ilə Azərbaycan arasında kənd təsərrüfatı sahəsində çoxillik əməkdaşlıq və qurumun dəstəyi ilə ölkəmizə göstərilən texniki yardımlar və layihələrlə bağlı ətraflı məlumat verilib.

Konfransda Almaniya, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Niderland Krallığı, İtaliya, Türkmənistan, Tacikistan, Özbəkistan, Pakistan və Sloveniyadan olan kənd təsərrüfatı mütəxəssisləri iştirak edib. Konfrans iki gün davam edəcək.

Vergilər Nazirliyində müasir rəqəmsal texnologiyalar tətbiq ediləcək

Vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi, vergi inzibatçılığının əlverişli biznes mühitinin formalaşdırılmasına yönəldilməsi, korrupsiya və digər neqativ hallarla mübarizə sahəsində fəaliyyətin gücləndirilməsi məqsədilə aparılan struktur dəyişiklikləri çərçivəsində Vergilər Nazirliyində Rəqəmsal vergi inzibatçılığı departamenti yaradılıb.

Nazirliyin media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, yeni yaradılan departament elektron vergi inzibatçılığının tətbiqi, onun texnoloji təminatının daha yüksək səviyyəyə çatdırılması, məsafədən vergi xidmətlərinin göstərilməsi, operativ informasiya mübadiləsinin təmin edilməsi, informasiya təhlükəsizliyi sisteminin idarə olunması, vergi ödəyicilərinə aid məlumatların məxfiliyinin tam qorunması və digər istiqamətlərdə fəaliyyət göstərəcək. Departamentin tərkibində Vergi ödəyicilərinə məsafədən xidmət şöbəsi, İnformasiya təhlükəsizliyi şöbəsi və İnformasiya texnologiyaları şöbəsi yaradılıb.

VERGİ HESABATLARINI VERGİ ORQANLARI HAZIRLAYACAQ

Vergilər Nazirliyi sistemində vergi inzibatçılığı proseslərinin elektron qaydada aparılmasına imkan verən İnternet Vergi İdarəsi 2007-ci ildən etibarən fəaliyyət göstərir. İdarənin fəaliyyətinin müasir texnologiyalar əsasında qurulması vacib amildir.

Vergilər Nazirliyinin Rəqəmsal vergi inzibatçılığı departamentinin İnformasiya təhlükəsizliyi şöbəsinin rəhbəri Aqşin Məcidovun sözlərinə görə, nazirlik İnternet Vergi İdarəsinin fəaliyyətində yeniliklərin tətbiqinə hazırlaşır. Bununla bağlı olaraq, İnternet Vergi İdarəsinin yeni versiyasının hazırlanması, elektron xidmətlərin həm interfeys, həm də prosedur baxımından təkmilləşdirilməsi (3 klikdən istifadə etməklə öz fəaliyyətini həyata keçirməyə imkan verən sistemin tətbiqi), digər dövlət qurumları ilə inteqrasiyasının genişləndirilməsi, informasiya texnologiyası arxitekturasının optimallaşdırılması nəzərdə tutulub.

Tətbiq ediləcək yeniliklərdən biri də bəyannamələrin hazırlanması ilə bağlıdır. Hazırda vergi bəyannamələri vergi ödəyiciləri tərəfindən tərtib olunur və nazirliyə təqdim edilir. Lakin bəyannamələrin tərtibatı zamanı Vergi ödəyiciləri müəyyən çətinliklərlə üzləşir. Bu baxımdan, Vergilər Nazirliyi əlaqəli dövlət qurumları arasında elektron inteqrasiya sistemini təkmilləşdirməklə vergi bəyannamələrinin ödəyicilərin əməliyyatları əsasında vergi orqanları tərəfindən ilkin versiyasının hazırlanaraq təsdiq üçün vergi ödəyicisinə göndərilməsi üzərində iş aparır.

E-QAİMƏLƏRİN GÖNDƏRİLMƏSİNİN SADƏLƏŞDİRİLMƏSİ PLANLAŞDIRILIR

Vergi qanunvericiliyinin müddəalarına əsasən, cari ilin yanvar ayından etibarən bütün vergi ödəyiciləri elektron qaimə (e-qaimə) tətbiq edir. Hazırda e-qaimə və e-vhf tərtib edilməsində müəyyən mürəkkəblik mövcuddur.

Bununla bağlı aparılan işlərin nəticəsi olaraq, nazirliyin informasiya sisteminin təkmilləşdirilməsi, xüsusən də vergi ödəyiciləri üçün istifadəçi interfeyslərinin dizaynına xüsusi diqqət yetirilməsi və e-qaimə və e-vhf-ın göndərilməsinin sadələşdirilməsi planlaşdırılır. Hazırda Vergilər Nazirliyi tərəfindən bu istiqamətdə hazırlıq və təhlil işləri aparılır.

E-AUDİT - ŞƏFFAF YOXLAMA METODU

Vergilər Nazirliyi vergi ödəyiciləri ilə münasibətdə insan faktorunun rolunu minimuma endirmək məqsədilə vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin avtomatlaşdırılması ilə yanaşı, vergi nəzarəti proseslərinin avtomatlaşdırılmasına da çalışır. Rəqəmsal vergi inzibatçılığı departamenti elektron auditin (e-audit) effektiv və səmərəli formada tətbiqi üzərində araşdırmalar aparır. Bunun üçün yeni məlumat bazasının yaradılması Vergi ödəyiciləri haqqında məlumatların ümumi bazaya inteqrasiyası, bu sahədə qanunvericiliyin və prosedurların təkmilləşdirilməsi, yeni texnologiyanın tətbiqi və süni intellekt modulları əsasında informasiya sisteminin qurulması işləri həyata keçiriləcək.

ELEKTRON NƏZARƏT SİSTEMİ - ONLAYN KASSA

Vergilər Nazirliyinin rəqəmsal texnologiyalardan istifadənin genişləndirilməsi sahəsində hədəflərindən biri onlayn kassa aparatlarının tətbiqidir. Hazırda nəzarət-kassa aparatlarından nazirliyin sisteminə ötürülən məlumatlar oflayn rejimdə həyata keçirilir. Vergilər Nazirliyinin məqsədi ondan ibarətdir ki, kassa aparatları sahəsində şəffaflıq təmin olunsun. Bunun üçün yaxın gələcəkdə yeni texnologiyadan istifadə etməklə onlayn kassa aparatlarının

tətbiqi planlaşdırılır. Nazirliyin informasiya sistemi və onlayn kassa aparatı arasında məlumat mübadiləsi onlayn rejimdə həyata keçiriləcək. Nəticədə nazirliyin sistemində vergi ödəyicilərinin əməliyyat məlumatları daha dürüst olacaq və satış mühasibatlığında şəffaflığı artıracaq. Bundan əlavə, kassa aparatları üzrə texniki tələblərə yenidən baxılması planlaşdırılır.

YENİ TEXNOLOGİYALAR YENİ TƏHLÜKƏSİZLİK SİSTEMİNİ TƏLƏB EDİR

Dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin "Dövlət xidmətləri" Portalında Vergilər Nazirliyi ən çox elektron xidmət təklif edən qurumdur. Hazırda Vergilər Nazirliyi tərəfindən təklif edilən elektron xidmətlərin sayı 63-dür və bu xidmətlərin sayının artırılması istiqamətində işlər aparılır. Bu işlər sayəsində gələcəkdə vergi ödəyiciləri ilə münasibətlərdə insan amilinin aradan qaldırılması və xidmət şəbəkələrinin iş həcminin azaldılması hədəf seçilib. Elektron xidmətlərin sayının və keyfiyyətinin artırılması, elektronlaşmanın yüksək səviyyəyə çatdırılması təhlükəsizlik məsələlərinin həllini zəruri edir. İnformasiya təhlükəsizliyi sisteminin idarə edilməsində müasir metodların tətbiqi və vergi ödəyicilərinə aid məlumatların məxfiliyinin tam qorunması Vergilər Nazirliyinin Rəqəmsal vergi inzibatçılığı departamentinin hədəflərindən biridir. Vergilər Nazirliyində vergi ödəyicilərinə məxsus, kommersiya sirləri və vergi orqanlarının fəaliyyəti ilə bağlı məlumatlar toplanır və bu məlumatların kiberhücumlardan sığortalanması üçün ən müasir və təkmil texnologiyaların tətbiqi vacibdir. Vergilər Nazirliyi hazırda bu sahənin təkmilləşdirilməsi üzərində iş aparır.

Beləliklə, nazirliyin yeni rəqəmsal idarəetmə sistemi çərçivəsində müasir vergi siyasətinin tənzimlənməsi yolu ilə nəzərdə tutulmuş hədəflərə, prinsip və məqsədlərə daha effektiv nail olunacaq.

Quba, Qusar, Xaçmaz, Siyəzən və Şabranda 5509 ton təmizlənmiş toxum qeydiyyata alınıb

Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin mütəxəssisləri tərəfindən 2018-ci ildə dövlət və özəl toxumçuluq təsərrüfatlarında istehsal olunmuş və kondisiyaya çatdırılmış payızlıq dənli-taxıl (buğda və arpa) toxumlarının sertifikatlaşdırılması üçün toxumçuluq təsərrüfatlarında monitorinqlər həyata keçirilir.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildiriblər ki, bu il toxumçuluq təsərrüfatları tərəfindən istehsal olunub kondisiyaya çatdırılmış, dənli-taxıl (buğda, arpa) bitkilərinin toxumlarının dağlıq və dağətəyi, o cümlədən aran bölgələrində istehsalçı fermerlərə optimal müddətdə satılması məqsədi ilə sertifikatlaşmaya hazır toxumlara baxış keçirilməsinə başlanılıb.

Bu məqsədlə avqustun 17-dən başlayaraq Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin və yerli qurumların mütəxəssislərinin iştirakı ilə 27 nəfərdən ibarət 9 monitorinq qrupu 12 Regional Toxum Sertifikatlaşdırma Mərkəzinin (RTSM) xidmət göstərdiyi 44 rayonun toxumçuluq təsərrüfatlarında monitorinq həyata keçirib.

Dövlət Xidmətinin mütəxəssisləri Quba Regional Toxum Sertifikatlaşdırma Mərkəzinin əhatə etdiyi rayonlarda toxumçu fermerlərin iştirakı ilə (Quba, Qusar, Xaçmaz, Siyəzən və Şabran) 38 toxumçuluq təsərrüfatında toxumun anbarda saxlanılmasına, qablaşdırılmasına, etiketlənməsinə, dərmanlanmasına, kondisiyaya çatdırılmasına baxış keçirib. Kondisiyalı toxumlara baxış zamanı Quba RTSM üzrə 5509 ton (38 təsərrüfatda) təmizlənmiş toxum qeydiyyata alınıb. Qeydiyyata alınmış toxum partiyalarından müvafiq RTSM-nin mütəxəssisləri tərəfindən laboratoriya analizləri üçün işçi və dublikat nümunələr götürülüb. Hazırda toxumların keyfiyyət analizləri davam edir. Keyfiyyət göstəriciləri (təmizliyi, cücərməsi, sağlamlığı, təsərrüfat yararlılığı və s.) müvafiq standartların tələblərinə cavab verən toxumlar, həmin Regional Toxum Sertifikatlaşdırma mərkəzləri tərəfindən sertifikatlaşdırılacaq.

Digər bölgələrdə monitorinqlər davam etdirilir.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır

Azərbaycanın regionlarında fəal məşğulluq tədbirləri həyata keçirilir

2018-ci ilin 8 ayı ərzində respublikanın 15 şəhər və rayonunda təşkil olunan əmək yarmarkalarında 814 nəfər işsiz vətəndaş münasib işlərlə təmin edilib

Sosial dövlət olan Azərbaycanda fəal məşğul əhalinin əmək bazarına inteqrasiyasının təmin edilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Prezident İlham Əliyev ölkədəki müsbət demoqrafik vəziyyətə adekvat olaraq yeni iş yerlərinin yaradılmasını daimi prosesə çevirməklə bağlı qarşıya mühüm vəzifə qoyub. Dövlət başçısının müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq paytaxt Bakıda olduğu kimi, bölgələrdə də iqtisadi aktivlik təmin olunur və son nəticədə bütün respublika üzrə insanların məşğulluq imkanları getdikcə artır. Son 15 ildə respublika üzrə 1,9 milyon yeni iş yeri açılıb. Həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində ölkədə işsizliyin səviyyəsini 5 faizədək aşağı salmaq mümkün olub ki, bu da dünyada ən yaxşı göstəricilərdən hesab olunur. Təsadüfi deyil ki, Azərbaycanın əmək bazarının təkmilləşdirilməsi və əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində qazandığı uğurlar beynəlxalq reytinq agentlikləri tərəfindən də yüksək qiymətə layiq görülür. Məsələn, nüfuzlu Davos İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda iki pillə yüksələrək 137 ölkə arasında 35-ci yerdə qərarlaşan Azərbaycanın, eyni zamanda, əmək bazarının səmərəliliyi indikatoru üzrə mövqeyi əhəmiyyətli dərəcədə yaxşılaşıb. Ölkəmiz bu kateqoriya üzrə 9 pillə irəliləyərək 17-ci yerə yüksəlib.

REGİONAL SƏNAYE QURUCULUĞU VƏ AQRAR SEKTORUN İNKİŞAFI ÖLKƏ ÜZRƏ ƏHALİNİN MƏŞĞULLUQ İMKANLARININ ARTMASINDA MÜHÜM ROL OYNAYIR

Son illərdə ölkənin sənaye xəritəsi regionlara doğru genişlənir ki, bunun da sayəsində bölgələrdə əmək qabiliyyətli insanlar layiqli iş yerləri ilə təmin olunurlar. Ölkədə yaradılan sənaye parklarına indiyədək 2,6 milyard dollar investisiya yatırılıb, tikintidə və istehsalda 11 minə yaxın iş yeri yaradılıb. Növbəti mərhələdə 1,1 milyard dollardan çox investisiya qoyuluşu və 7500-dək yeni iş yerinin açılması nəzərdə tutulur. Artıq Sumqayıt Kimya Sənaye Parkında 50-dək rezident fəaliyyət göstərir. Sənaye Parkında fəaliyyət göstərən müxtəlif təyinatlı müəssisələrdə çoxlu sayda yeni iş yerləri açılıb. Bu yaxınlarda Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışı mərasimi keçirilib. "SOCAR Polymer" zavodları ildə 19 növ olmaqla 184 min ton polipropilen və 12 növ olmaqla 120 min ton yüksəksıxlıqlı polietilen istehsal edəcək. İlkin qiymətləndirmələrə görə, "SOCAR Polymer" zavodlarının fəaliyyəti Azərbaycanın qeyri-neft sektorunun ixrac gəlirlərini 19 faiz, Abşeron iqtisadi regionunun ümumi daxili məhsulunun həcmini isə 15 faiz artıracaq. İstismar müddətində zavodda 500 nəfər daimi iş yeri ilə təmin olunacaq.

Balaxanı Sənaye Parkında fəaliyyət göstərən 5 müəssisədə 400-ə yaxın işçi çalışır. İkinci mərhələdə burada daha 5 istehsal sahəsinin tikintisinə başlanacaqdır ki, bu da əlavə iş yerlərinin açılması deməkdir. Cari ilin fevral ayında Mingəçevir Sənaye Parkının ərazisində 14,5 hektar sahədə yaradılmış "Mingəçevir Tekstil" Məhdud Məsuliyyətli Cəmiyyətinin iki iplik istehsalı fabriki işə salınıb. İnvestisiya dəyəri 85 milyon dollar olan 2 iplik fabrikində 750 nəfər işlə təmin olunub. Neftçala Sənaye Məhəlləsində 8 müəssisə artıq fəaliyyətə başlayıb, bu müəssisələr üzrə 45 milyon manatdan çox investisiya qoyulub, 500-ə yaxın yeni iş yeri yaradılıb.

Ümumiyyətlə, regional sənaye quruculuğu ilə bağlı statistika kifayət qədər zəngindir. Masallı Sənaye Məhəlləsinin tikintisi başa çatdırılıb, Hacıqabul və Sabirabad sənaye məhəllələri ilin sonunadək istifadəyə veriləcəkdir. Dövlət başçısının tapşırığına uyğun olaraq, xalçaçılığın inkişafı məqsədilə 10 rayonda xalça emalatxanası istifadəyə verilib, daha 10 emalatxananın, 5 yun və boyaq maddələrinin qəbulu məntəqəsinin və Sumqayıt Kimya Sənaye Parkında yunəyirici boyaq fabrikinin tikintisi həyata keçirilir. Pirallahı Sənaye Parkında ümumi dəyəri 100 milyon dollar olan əczaçılıq və şpris istehsalı müəssisələrinin yaradılması işləri aparılır. Bəhs olunan istehsalatların yaradılmasına çoxlu sayda işçi qüvvəsi cəlb edilib və gələcəkdə bu istehsalatlarda yeni iş yerlərinin sayı daha da artacaq.

2018-ci ilin birinci yarısında respublikada aqrar sektorun nəzərəçarpacaq dərəcədə genişlənməsi də regionlarda yeni iş yerlərinin açılmasını şərtləndirən mühüm amil qismində çıxış edir. Cari ilin birinci yarısında kənd təsərrüfatı 7,6 faiz, o cümlədən bitkiçilik 14 faizdən çox artıb. Regionlarda insanlar dövlət tərəfindən böyük qayğı göstərilən pambıqçılıq, baramaçılıq, tütünçülük sahələrində çalışaraq yüksək qazanc götürürlər. Bütövlükdə, 2018-ci ilin ilk 6 ayında ölkə üzrə 67 min yeni iş yeri yaradılmışdır ki, onlardan da 58 mini daimi iş yeridir.

MÜNTƏZƏM KEÇİRİLƏN ƏMƏK YARMARKALARI İNSANLARIN ƏMƏK BAZARINA İNTEQRASİYA İMKANLARINI ARTIRIB

İş axtaran vətəndaşların, xüsusilə də gənclərin layiqli iş yerləri ilə təmin olunmasında mühüm əhəmiyyət daşıyan tədbirlərdən biri də respublikanın bütün bölgələrində müntəzəm keçirilən əmək yarmarkalarıdır. Yarmarkaların keçirilməsində əsas məqsəd işəgötürənlərlə iş axtaran vətəndaşların qarşılıqlı ünsiyyətinin təşkil edilməsidir.

2018-ci ilin 8 ayı ərzində respublikanın 15 şəhər və rayonunda əmək yarmarkaları təşkil olunub. Yarmarkalarda 377 müəssisə tərəfindən vakant iş yerləri təqdim edilib. Respublikanın müxtəlif regionlarında keçirilən yarmarkalarda bütövlükdə 968 nəfər işaxtarana münasib iş yerlərinə göndəriş verilib, onlardan 814 nəfər (84,1%-i) işsiz vətəndaş istəklərinə uyğun işlərlə təmin edilib, 69 nəfər peşə hazırlığı kurslarına, 15 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olunub.

Qeyd olunduğu kimi, əmək yarmarkaları əvvəlcədən tərtib edilən cədvələ uyğun olaraq respublikanın müxtəlif bölgələrində keçirilir. Dövlət Məşğulluq Xidmətinin cədvəlinə uyğun olaraq 30 avqust 2018-ci il tarixində Ağsu rayonunda növbəti əmək yarmarkası təşkil olunub. Yarmarkada 23 idarə, müəssisə, özəl şirkət və fiziki şəxslər tərəfindən 245 vakant iş yeri təqdim edilib. Yarmarkanın ilkin nəticəsi olaraq 51 nəfər iş axtaran vətəndaş işlə təmin olunub.

2018-Cİ İLİN BİRİNCİ YARISINDA NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA 1700-DƏN ÇOX VƏTƏNDAŞ İŞLƏ TƏMİN OLUNUB

Naxçıvan Muxtar Respublikasında aktiv məşğulluq tədbirləri davamlı olaraq diqqət mərkəzində saxlanılır. Təkcə bu ilin birinci yarısında 1708 nəfər işaxtaran müxtəlif sahələrdə işlə təmin olunub.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən KİV-ə bildirilib ki, bu dövrdə 156 nəfər müvəqqəti, 112 nəfər işaxtaran isə sosial əhəmiyyətli haqqı ödənilən işlərə cəlb edilib. Onlardan 13-ü sağlamlıq imkanları məhdud şəxsdir. Təşkil olunmuş əmək yarmarkalarında isə 212 nəfər işlə təmin edilib. Hərbi xidmətdən tərxis olunan gənclərin də məşğulluğu diqqət mərkəzində saxlanılıb, 14 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işə göndərilib, 3 nəfər peşə hazırlığı kursuna cəlb olunub.

Bu dövrdə kənd mərkəzlərində yaradılmış dərzi sexləri, bərbərxana və gözəllik salonlarında monitorinqlər aparılıb, mövcud boş iş yerlərində çalışmaq istəyən şəxslər müəyyənləşdirilib, Naxçıvan Regional Peşə Tədris Mərkəzində müvafiq peşələr üzrə 2 kurs təşkil olunub.

İlin birinci yarısında nazirlik tərəfindən sosial müdafiəyə ehtiyacı olan vətəndaşların məşğulluğunun təmin olunmasına diqqət artırılıb, 10 nəfər kvota yerləri üzrə işə göndərilib, ünvanlı dövlət sosial yardımı almaq üçün müraciət edən 42 nəfər işlə təmin olunub.

MUXTAR RESPUBLİKADA 12 AİLƏ TƏSƏRRÜFATINA 145 MİN MANAT MALİYYƏ DƏSTƏYİ GÖSTƏRİLİB

Məlum olduğu kimi, respublikamızda Prezident İlham Əliyevin 7 aprel 2016-cı il tarixli Sərəncamına əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən səmərəli özünüməşğulluq proqramı uğurla həyata keçirilir. Proqramın əsas məqsədi insanları layiqli iş yerləri ilə təmin etməkdən ibarətdir. Proqram çərçivəsində 2017-ci ilin fevral ayından başlayaraq müəyyən kateqoriyadan olan ailələrin öz fərdi təsərrüfatlarını quraraq özünüməşğulluq fəaliyyətinə və ailə biznesinə çıxış imkanlarına malik olmaları üçün aktivlərlə təminatı həyata keçirilir. Özünüməşğulluq proqramına cəlb olunan ailələrin böyük əksəriyyəti ölkənin regionlarının payına düşür. Aktivlərlə təmin olunan ailələr əsasən xidmət və aqrar sektorda istehsalyönümlü fərdi təsərrüfatlarını formalaşdırıblar. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumatda bildirilir ki, 2018-ci ilin əvvəlindən "İşsizlikdən sığorta haqqında" qanunun tətbiqinə başlanılması nəticəsində formalaşan maliyyə vəsaitləri işsiz şəxslərin sosial müdafiəsi ilə yanaşı, özünüməşğulluq proqramının əhatə dairəsinin genişlənməsinə, proqrama cəlb olunanların sayının dəfələrlə artırılmasına imkan yaradacaq.

Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da təbii ehtiyatlardan və əmək potensialından istifadə olunmaqla özünüməşğulluq proqramının əhatə dairəsinin genişləndirilməsi diqqət mərkəzində saxlanılır. İndiyədək muxtar respublikada sosial qayğıya ehtiyacı olan 66 aztəminatlı ailənin fərdi təsərrüfatının inkişaf etdirilməsinə və özünüməşğulluğunun təmin olunmasına dəstək verilib. O cümlədən 2018-ci ilin birinci yarısında muxtar respublikada 12 ailə təsərrüfatına 145 min manat məbləğində maliyyə dəstəyi göstərilib. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən bildirilib ki, ailə təsərrüfatlarının iqtisadi inkişafdakı rolu nəzərə alınaraq muxtar respublikada da onların fəaliyyətlərinin stimullaşdırılması, genişləndirilməsi üçün mühüm addımlar atılır, dövlət tərəfindən təsərrüfatçılara hərtərəfli dəstək verilir.

Mübariz ABDULLAYEV

MİDA Bank VTB (Azərbaycan) və Azərbaycan Beynəlxalq Bankı ilə əməkdaşlıq müqavilələri imzalayıb

Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) Bank VTB (Azərbaycan) və Azərbaycan Beynəlxalq Bankı ilə əməkdaşlıq müqavilələri imzalayıb.

MİDA-dan AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli Fərmanı ilə təsdiq edilmiş müvafiq Qaydaya əsasən, güzəştlə mənzil əldə etmək hüququna malik şəxslərə təklif olunan güzəştlərdən biri Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına verilən güzəştli ipoteka kreditidir.

"Güzəştli mənzil" sistemində qeydiyyata alınaraq şəxsi elektron kabinetə sahib olmuş vətəndaşlara bu güzəştdən yararlanmaq imkanı İpoteka və Kredit Zəmanət Fondunun müvəkkil bankları sırasına daxil olan və Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyindəki "MİDA" MMC ilə müvafiq əməkdaşlıq müqaviləsi imzalayan kredit təşkilatları tərəfindən təmin edilir.

Vətəndaşların rahatlığı məqsədilə MİDA bu sahədə əməkdaşlıq etdiyi bankların dairəsini genişləndirməkdə davam edir. "MİDA" MMC ilə əməkdaşlıq müqaviləsi imzalamış növbəti kredit təşkilatları Bank VTB (Azərbaycan) və "Azərbaycan Beynəlxalq Bankı" ASC olub.

Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına vətəndaşlara güzəştli ipoteka kreditinin verilməsi ilə bağlı "MİDA" MMC ilə əməkdaşlıq müqaviləsi imzalamış bankların sayı 6-ya çatıb. Daha öncə analoji müqavilələr "Kapital Bank", "Bank BTB", "UniBank" və "Azər-Türk Bank" ASC ilə bağlanıb.

Qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər zamanı 68 əcnəbi saxlanılıb

Son üç gün ərzində Dövlət Miqrasiya Xidməti (DMX) tərəfindən qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər zamanı 68 əcnəbi saxlanılıb.

DMX-dən AZƏRTAC-a bildiriblər ki, saxlanılmış əcnəbilərdən 11-nin qanunsuz əmək fəaliyyəti ilə məşğul olduqları, 5-nin qeydiyyat ünvanı üzrə yaşamadıqları, digər 52 nəfərin isə ölkə ərazisində qanunsuz yaşadıqları müəyyənləşdirilib.

Onlardan 48 nəfər barəsində inzibati qərarlar qəbul edilib. Digər əcnəbilərin Azərbaycan Respublikası hüdudlarından kənara çıxarılması istiqamətində müvafiq tədbirlər görülür.

DMX qanunsuz miqrasiyaya qarşı mübarizə tədbirlərini davam etdirir.

Bakıda Beynəlxalq Elektron Ticarət Forumu keçiriləcək

Sentyabrın 24-25-də Bakıda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təşəbbüsü, Avropa İttifaqının və BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının dəstəyi ilə Elektron Ticarət Forumu keçiriləcək.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, "Bakı E-ticarət Forumu 2018" adlanan beynəlxalq tədbirdə 300-dən çox yerli və xarici nümayəndənin iştirakı gözlənilir.

İlk dəfə Azərbaycanda elektron ticarət, elektron ödəniş və logistika xidmətlərini həyata keçirən kiçik və orta sahibkarları, startapları, həmçinin bu sahənin müxtəlif aspektlərinin inkişafı ilə məşğul olan dövlət orqanlarını və beynəlxalq inkişaf agentliklərini bir araya gətirəcək forum Azərbaycanda elektron ticarətin inkişafına təkan vermək məqsədi daşıyır. Forum regionda elektron ticarətin inkişafı üçün müvafiq tövsiyələri nəzərdən keçirmək və praktik tətbiq imkanlarının müəyyən edilməsi üzrə beynəlxalq platforma rolunu oynayacaq.

Beynəlxalq tədbir çərçivəsində elektron ticarətin inkişafı üçün BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı tərəfindən müəyyən edilmiş 7 əsas istiqamət üzrə müxtəlif sessiyalar təşkil olunacaq. Sessiyalarda Avropa İttifaqı, Dünya Bankı, Ümumdünya Ticarət Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Ticarət Mərkəzi, Beynəlxalq Telekommunikasiya İttifaqı, Ümumdünya Poçt İttifaqı və digər beynəlxalq təşkilatların nümayəndələri və elektron ticarətin inkişafı üzrə tanınmış beynəlxalq ekspertlər çıxış edəcək. Tədbir çərçivəsində e-ticarətlə məşğul olan yerli startapların sərgisi də təşkil ediləcək.

Forumda iştirak etmək üçün www.bef2018.az rəsmi səhifəsində qeydiyyatdan keçmək tələb olunur.

Azercell Beynəlxalq İnformatika Olimpiadasında şagirdlərimizə dəstək olur

Dünyada kompüter elmi sahəsində ən nüfuzlu yarışlardan hesab olunan Beynəlxalq İnformatika Olimpiadasında ölkəmiz də təmsil olunur. Yaponiyanın Tsukuba şəhərində keçirilən 85 ölkədən 340 şagirdin qatıldığı olimpiadada ölkəmiz adından Fizika, Riyaziyyat və Informatika təmayüllü Respublika Liseyinin IX sinif şagirdi Abutalıb Namazov, Lənkəran şəhər 4 nömrəli tam orta məktəbin IX sinif şagirdi Murad Eynizadə, Akademik Zərifə Əliyeva adına liseyin XI sinif şagirdi Ziya Muxtarov, Bakı şəhəri 27 nömrəli tam orta məktəbin XI sinif şagirdi Rəfail Səddatimov iştirak edirlər.

Korporativ Sosial Məsuliyyət strategiyasında təhsilimizin və gələcəyimiz olan uşaqların inkişafına yönəlik layihələri ilə hər zaman seçilən Azərbaycan rabitə bazarının lider mobil operatoru "Azercell Telekom" MMC bu dəfə də nüfuzlu olimpiadada şagirdlərimizin uğur qazanmasına dəstək göstərir.

Belə ki, məktəblilər olimpiadaya Respublika Beynəlxalq Olimpiadalara hazırlıq mərkəzində Təhsil Nazirliyi və Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin dəstəyi ilə hazırlaşıblar. Məşğələlərdə əsas məqsəd şagirdlərin olimpiadalara hazırlıq prosesinin stimulllaşdırılması, onların elmi-yaradıcı təşəbbüslərinin artırılması, elmi potensialının nümayiş etdirilməsi üçün şəraitin yaradılması, müxtəlif müsabiqələr nəticəsində müəyyənləşdirilmiş istedadlı şagirdlərlə səmərəli hazırlığın həyata keçirilməsi olub.

2019-cu ildə Bakı şəhərində keçiriləcək Beynəlxalq İnformatika Olimpiadasında Azərbaycan məktəbliləri ilk dəfə hələ 1994-cü ildə, iştirak edib. Bu beynəlxalq tədbirdə Azərbaycan bu günə qədər 1 gümüş, 4 bürünc olmaqla 5 medal qazanıb. Beynəlxalq İnformatika Olimpiadasının keçirilməsində məqsəd kompüter bilikləri sahəsində xüsusi qabiliyyətli gəncləri tanıtmaq, informatika elminin önəmini gənclərə çatdırmaqdır.

Azercell Telekom şirkəti ölkəmizi Yaponiyada keçirilən olimpiadada təmsil edən şağirdlərimizə uğurlar arzulayır!

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074

"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul:
Nadir AZƏRİ